# NATO-NUN GƏLƏCƏYİ SUAL ALTINDA



NATO-dan çıxma prosesinə başlamaq üçün Tramp əvvəlcə Senatın üçdə ikisinin təsdiqini almalıdır. Hazırda o, buna yaxın deyil.

NATO-nu günahlandırmaq hazırkı Ağ Ev rəhbərinin uzun müddətdir davam edən vərdişidir. İlk səlahiyyət müddətində də Tramp müdafiə xərclərini artırmağı tələb etməklə Avropa liderlərini təhdid etmişdi. Nəticədə o, buna nail oldu.

Aİ-nin Ali Nümayəndəsi Kaya Kallas ABŞ Prezidentinin təhdidləri ilə bağlı narahatlığını bildirib. O qeyd edib ki, NATO-da "heç kim amerikalıları əvəz edə bilməz". Dövlət liderləri isə ABŞ Prezidentinə daha ehtiyatla cavab veriblər.

SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

11 APREL ŞƏNBƏ 2026 № 13 (4264) Qiyməti - 60 qəpik www.kaspi.az






## HƏSSAS NİSBİ SAKİTLİYƏ DOĞRU

İran-ABŞ-İsrail cəbhəsində hərbi qarşıdurma yerini atəşkəsin əldə edilməsi ilə həssas nisbi sakitliyə verib. Atəşkəs danışıqlarının İslamabadda aparılması gözlənilir. Prosesin gedişi rəsmi Bakı tərəfindən çox diqqətlə izlənilir.

SƏHİFƏ 4-də



## RƏQƏMSAL MALİYYƏDƏ KİBERTƏHLÜKƏSİZLİK

Son dövrlərdə mobil ödəniş platformalarında hesabların dondurulması ətrafında baş verənlər rəqəmsal maliyyə ekosistemində təhlükəsizlik mexanizmlərinin vacibliyini bir daha gündəmə gətirib.

SƏHİFƏ 8-də



## AQRAR SEKTORDA "YAĞIŞ SINAĞI"

Yağışlı hava kənd təsərrüfatı məhsullarının qiymətlərinə kəskin təsir göstərəcək. Xüsusilə yaz əkinlərinin gecikməsi və şitil sifarişlərinin kəskin azalması yaxın aylarda bazarlarda bahalaşmanı qaçılmaz edir.

SƏHİFƏ 7-də

ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ İMKANLARI DA DİQQƏT MƏRKƏZİNDƏ OLUB

# LİTVADAN BAKI-BRÜSSEL MÜNASİBƏTLƏRİNƏ DƏSTƏK



Litvanın Baş naziri İnqa Ruqinienenin Azərbaycana səfəri çərçivəsində ikitərəfli münasibətlərin inkişafı perspektivləri, Bakı-Brüssel əməkdaşlığının mövcud durumu və digər məsələlər müzakirə edilib.

### İNKİŞAF EDƏN İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR

İnqa Ruqinieneni Prezident İlham Əliyev də qəbul edib. Baş nazir Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğulayıb. Görüşdə Litvanın Azərbaycanın Aİ ilə münasibətlərinin inkişafına dəstək verdiyi qeyd olunub.

### İQTİSADİ ƏMƏKDAŞLIQ MÜZAKİRƏ OLUNUB

Litvanın Baş nazirinin azərbaycanlı həmkarı Əli Əsədovla görüşü zamanı isə Azərbaycan ilə Litva arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

SƏHİFƏ 2-də

"İllərlə qoltuq ağacları ilə gəzməli oldum"

## "SANKİ MƏNİ GÖZƏGÖRÜNMƏZ BİR QÜVVƏ QORUYURDU"



Milli Qəhrəman İbad Hüseynov: "Biz xoşbəxt adamlar idik ki, işğal altında olan torpaqlara qələbə ilə qədəm qoyduq. Sülh yolu ilə qədəm qoysaydıq, ürəyimizdə qisas hissi qalardı. Torpaqlarımızı döyüşərək işğaldan azad etməklə döyüş dostlarımızın, şəhidlərimizin də qisasını aldıq".

SƏHİFƏ 6-da



## REGİONAL ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRƏN SƏFƏR

Prezident İlham Əliyev Gürcüstana səfəri çərçivəsində həmkarı Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze ilə bir araya gəlib. Tərəflər dövlətlərarası münasibətlərdə gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

SƏHİFƏ 3-də



## AVTOMOBİL BAZARINDA İQTİSADİ PARADOKS

Rüsumların artırılmasına baxmayaraq, bazarda tələbi kəskin üstələyən süni təklif bolluğu Çin avtomobillərinin qiymətini minimuma salıb. Kütləvi paralel idxal və investorların təcili satışları bazarda durğunluq yaradıb.

SƏHİFƏ 9-da



## QANUN VAR, AMMA STEREOTİPLƏR DƏ QALIR

Qohum evliliklərinə qoyulan hüquqi qadağa hələ də cəmiyyətdə müzakirə olunur. Mütəxəssislər qeyd edirlər ki, qanun nikahın rəsmi qeydiyyatını məhdudlaşdırsa da, bəzi ailələrdə ənənəvi yanaşmalar qalmaqdadır.

SƏHİFƏ 14-də



Erməni QHT təmsilçiləri Azərbaycanda

SƏHİFƏ 2-də



SOCAR-"Itochu" əlaqələri müzakirə olunub

SƏHİFƏ 10-da



Rəqəmsal rahatlıq və artan narazılıq

SƏHİFƏ 11-də



Cədvəldə var, amma dərs keçirilmir

SƏHİFƏ 12-də



Yenidən dirçələn "Neftçi"

SƏHİFƏ 16-da



# Qala divarları bərpa edilir

İçərişəhər ərazisində Qala divarının bir hissəsində baş vermiş qismən dağılma ilə bağlı “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən dərhal operativ tədbirlər görülür. “Report”un məlumatına görə, bu barədə İdarənin Mətbuat Xidmətindən bildirilib.

Vurğulanıb ki, mövcud fəaliyyət planına uyğun olaraq, ilkin mərhələdə təcili konservasiya və sabitləşdirmə tədbirləri həyata keçiriləcək: “Bu tədbirlər zədələnmiş sahənin daha da deformasiyaya uğramasının qarşısını almağa və konstruksiyanın dayanıqlığını təmin etməyə yönəlib”.

Qeyd olunub ki, aşınma hadisəsinin baş verdiyi 13 və 14 saylı bürclərin kəsişmə hissəsində indiyədək hər hansı bərpa və ya restavrasiya müdaxiləsi həyata keçirilməyib. Aşınmaya əsas səbəb son günlər müşahidə olunan aramsız atmosfer yağıntıları nəticəsində yaranan rütubət və təbii erroziya prosesləridir.



# Erməni QHT təmsilçiləri Azərbaycana gəliblər

“Sülh Körpüsü” Təşəbbüsü Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoqu və birbaşa əlaqələri təşviq etməyə davam edir. Aprelin 10–12-də Azərbaycanda “Sülh Körpüsü” Təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə növbəti ikitərəfli dəyirmi masa işə başlayıb.

“Report” xəbər verir ki, bu dəfə erməni nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə daxil olub, delimitasiya və demarkasiya olunmuş sahədən keçərək bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurlarından keçib.

Qeyd edək ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.



# LİTVADAN BAKI-BRÜSSEL MÜNASİBƏTLƏRİNƏ DƏSTƏK

Litvanın Baş naziri İnqa Ruqinienenin Azərbaycana səfəri çərçivəsində ikitərəfli münasibətlərin inkişafı perspektivləri, Bakı-Brüssel əməkdaşlığının mövcud durumu, həmçinin digər regional və beynəlxalq məsələlər müzakirə edilib.

Litvanın Baş naziri İnqa Ruqiniene Azərbaycana səfər edib. Səfər çərçivəsində azərbaycanlı həmkarı Əli Əsədovla görüşən İnqa Ruqinieneni Prezident İlham Əliyev də qəbul edib.

Qəbul zamanı Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən İnqa Ruqiniene Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğulayıb.

Söhbət zamanı ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilib, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparılıb, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edilib. Litvanın Baş naziri Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlət başçısına təbriklərini çatdırıb. Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində Azərbaycan dövləti tərəfindən genişmiqyaslı işlərin həyata keçirildiyini qeyd edib.

## “HƏMİN ƏRAZİLƏRDƏ MİNALAR PROBLEMİ MÖVCUDDUR”

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev regionda sülhün və Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin qurulmasının təşəbbüskarının məhz ölkəmiz olduğunu vurğulayıb. Dövlət başçısı bildirib ki, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu deyib. Ancaq bununla belə dövlət başçısı qeyd edib ki, həmin ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir.

Görüşdə Azərbaycan-Litva əlaqələrinin ikitərəfli gündəliyi ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulanıb.

## NƏQLİYYAT, ENERJİ VƏ DİGƏR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ

Baş nazir Əli Əsədovla görüş zamanı isə Azərbaycan ilə Litva arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini məmnunluqla qeyd edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcud olduğunu vurğulayıblar.

İqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi, ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarının təşviqi məsələlərinə xüsusi diqqət yetirilib. Bu kontekstdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub. Nəqliyyat və logistika sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilərək, Orta Dəhliz və digər beynəlxalq nəqliyyat marşrutları üzrə qarşılıqlı fəaliyyətin genişləndirilməsi imkanları nəzərdən keçirilib. Enerji sahəsində əməkdaşlıq imkanları da diqqət mərkəzində olub.



## MİLLİ XALÇA MUZEYİ VƏ İÇƏRİŞƏHƏRLƏ TANIŞLIQ

Səfər çərçivəsində İnqa Ruqiniene Azərbaycan Milli Xalça Muzeyi ilə də tanış olub. Bildirilib ki, Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Litvanın Baş naziri İnqa Ruqinieneyə, həmçinin Azərbaycanın milli geyimləri və qədim kələağayı sənəti haqqında məlumat verilib.

Baş nazir dünya mədəni irs abidələri sırasında yer alan “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu ilə də tanış olub. Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

# REGİONAL ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRƏN SƏFƏR

**Prezident İlham Əliyev Gürcüstana səfəri çərçivəsində həmkarı Mixeil Kavelaşvili, Baş nazir İrakli Kobaxidze ilə bir araya gəlib. Tərəflər dövlətlərarası münasibətlərin mövcud durumuna nəzər salıblar, gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.**




F.ABASOĞLU

Prezident İlham Əliyevin Gürcüstan səfəri mövcud geosiyasi şəraitdə mühüm əhəmiyyət kəsb edir. Cənubi Qafqazın iki dövləti – Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin uğurlu inkişafı, strateji tərəfdaşlıq mahiyyəti daşıması və mehriban qonşuluq prinsipinə əsaslanması bölgədə sülh və sabitliyin təminində, iqtisadi inkişafda əvəzedilməz faktor rolunu oynayır. İki ölkənin davamlı olaraq bir-birinin ərazi bütövlüyü və suverenliyinə sarsılmaz dəstəyi, həyata keçirilən birgə meqalayihələr bu münasibətlərin əsasını təşkil edir.

Qeyd edək ki, Prezident İlham Əliyev Gürcüstana səfəri çərçivəsində həmkarı Mixeil Kavelaşvili ilə görüşüb. Söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Dövlət başçısı səfər çərçivəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə də bir araya gəlib. Tərəflər dövlətlərarası münasibətlərin mövcud durumuna nəzər salıblar.

### ƏRAZİ BÜTÖVLÜYÜNƏ QARŞILIQLI GÜCLÜ DƏSTƏK

İki ölkə arasında əməkdaşlığın strateji mahiyyət daşıdığı tərəflərin mətbuata birgə bəyanatlarında da xüsusi qeyd edilib.

Baş nazir İrakli Kobaxidze bəyan edib ki, Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Onun sözlərinə görə, Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdarı qalacaq.

## Tbilisi sülh prosesini alqışlayır

Kobaxidze bölgədə sülh gündəliyinə də toxunub. Bildirib ki, Tbilisi Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayır. Gürcüstan dinc yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsləri qəti şəkildə dəstəkləyir: "Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır. Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq".

### GÜRCÜSTANA 3,7 MİLYARD DOLLAR SƏRMAYƏ QOYULUB

Prezident İlham Əliyev bildirib ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir: "Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir".

İqtisadi əlaqələrdən danışan dövlət başçısı bəyan edib ki, keçən il qarşılıqlı ticarət dövriyyəsi 800 milyon dollardan çox olub: "Bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur".

## Cənubi Qafqazda yeni vəziyyət

İki ölkə arasındakı ali səviyyədə aparılan müzakirələrdə regional təhlükəsizlik və sülh prosesləri xüsusi önəm daşıyıb. Bu barədə də danışan Prezident İlham Əliyev qeyd edib ki, bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır, region ölkələri bu imkanları əldən verməməlidir: "Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".

Birgə layihələrə də toxunan Prezident



İlham Əliyev bildirib ki, bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir: "Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcək".

### SƏFƏRİN GÜRCÜSTAN ÜÇÜN ƏHƏMİYYƏTİ

Azərbaycan Prezidentinin Gürcüstana səfəri bu ölkənin ictimai-siyasi kəsimi tərəfindən də yüksək qiymətləndirilir. Rəsmilərin bəyanatları Tbilisinin Bakı ilə əməkdaşlığa nə dərəcədə önəm verdiyini bir daha ortaya qoyur

Tbilisinin meri Kaxa Kaladzenin sözlərinə görə, Prezident İlham Əliyevin Gürcüstana səfəri onlar üçün çox vacibdir. "Azərbaycan bizim strateji tərəfdaş ölkəmizdir. İki ölkə arasında münasibətlər çox vacibdir. Dostluq və səmimi münasibətlər illərdir mövcuddur. Biz bu dostluq münasibətlərini və strateji tərəfdaşlığı alqışlayırıq", - deyə Kaladze vurğulayıb. O deyib: "Prezident İlham Əliyevin Gürcüstana səfəri çox vacibdir".

Göründüyü kimi, Prezident İlham Əliyevin Gürcüstana növbəti səfəri iki ölkə arasındakı münasibətlərin gələcək inkişafına yeni dinamika verib.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# HƏSSAS NİSBİ SAKİTLİYƏ DOĞRU

**İran-ABŞ-İsrail cəbhəsində atəşkəsin elan olunması Azərbaycanda da məmnunluqla qarşılanıb. Prosesin gedişi rəsmi Bakı tərəfindən çox diqqətlə izlənilir.**

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Yaxın Şərqdə həftələrlə davam edən İran-ABŞ-İsrail cəbhəsində hərbi qarşıdurma yerini atəşkəsin əldə edilməsi ilə həssas nisbi sakitliyə verib. İki həftə müddətinə nəzərdə tutulan atəşkəslə bağlı danışıqların İslamabadda aparılması gözlənilir. Tərəflər arasındakı ziddiyyətlər mövcud durumu xeyli qəlizləşdirir. Bu proses rəsmi Bakı tərəfindən də çox diqqətlə izlənilir. İstər münaqişənin ən qızğın vaxtında, istərsə də atəşkəsdən sonrakı dönəmdə Azərbaycanın yürütdüyü siyasət diqqət çəkir.

### PEZEŞKİANA ZƏNG

Aprelin 8-də Prezident İlham Əliyev iranlı həmkarı Məsud Pezeşkiana zəng edib. Dövlət başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb. Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

Bu, dövlət başçıları arasında reallaşan danışıqların rəsmi tərəfidir. Lakin məsələyə daha geniş kontekstdən yanaşdıqda bu telefon danışığı regiondakı gərginlik fonunda yürüdülən praqmatik siyasətin tərkib hissəsi kimi dəyərləndirilməlidir. Hərbi qarşıdurmanın ilk günlərindən etibarən Azərbaycan rəhbərliyinin atdığı addımlar rəsmi Bakının siyasətinin situativ yox, daha qlobal miqyas əhatə etdiyini və hədəflər daşıdığını ortaya qoyur.

### DİPLOMATİK FƏALLIQ

Qeyd edək ki, ilk anlardan etibarən Azərbaycan münaqişənin miqyasının genişlənməsinin qarşısının alınması, İrana və digər qonşu dövlətlərə münasibətdə bəyan edilən xarici siyasət prinsiplərinin reallıqda əksini tapması üçün diplomatik fəallığı ilə seçilib. Prezident İlham Əliyevin iranlı həmkarı ilə bir neçə dəfə danışıqları baş tutub. Bu danışıqlar zamanı Azərbaycan ərazisindən İrana qarşı üçüncü dövlətlərin istifadəsinə imkan verilməyəcəyi ilə bağlı qəti mövqe Tehranın diqqətinə çatdırılıb. Həmçinin İran ərazisindən Azərbaycana qarşı təxribatlara əl atılmasın yolverilməzliyi də qəti şəkildə bildirilib. Bu danışıqların məntiqi nəticəsi olaraq Azərbaycan müharibədən əziyyət çəkən iranlılara yüzlərlə ton humanitar yardımlar göndərib. Digər dövlətlər tərəfindən İran üçün nəzərdə tutulan humanitar yardımların da Azərbaycan vasitəsi ilə maneəsiz çatdırılması üçün ən yüksək səviyyədə şərait yaradılıb. Münaqişə zamanı qanlı hərbi qarşıdurmalara son qoyulması və məsələlərin diplomatik danışıqlar çərçivəsində həllinin vacibliyini bəyan edib.

### MƏSULİYYƏTLİ VƏ ETİBAR OLUNAN REGİONAL AKTOR

Qeyd olunan faktlar bir daha göstərir ki, Azərbaycanın İrana münasibətdə siyasəti tək qonşu dövlət prinsipinə əsaslanmır. Bu münasibətlər qarşılıqlı maraqlar baxımından daha çox strateji əhəmiyyət daşıyır. Azərbaycan cənub qonşusunun ən çətin anlarında konstruktiv yanaşması və dostyana münasibəti ilə fərqləndi. İranın digər bölgələrindən fərqli olaraq Azərbaycanla sərhədlərində vəziyyətin stabil və təhlükəsiz qalması hər iki tərəf üçün mühüm əhəmiyyət daşıyır. Mövcud reallıq fonunda Azərbaycanın siyasəti özünü tək sözdə yox, əməldə də təsdiqlədi. Real durum Azərbaycanın tək sülh yox, həm də müharibə şəraitində məsuliyyətli və etibar olunan regional aktor statusunu bir daha bütün dünyaya, xüsusilə də İran rəhbərliyinə göstərmiş oldu. Azərbaycan müharibə zamanı riskləri artırmaq yox, təhdidləri neytrallaşdırmaq strategiyasına üstünlük verməklə özünün milli maraqlarını ən yüksək səviyyədə təmin etmiş oldu.

### DÜŞÜNÜLMÜŞ SİYASİ ADDIMLARIN ARDICILLIĞI

Atəşkəsdən sonra da rəsmi Bakının diplomatik fəallığı və davamlı siyasi addımları ardıcıllığını qoruyur. Azərbaycan istər münaqişə tərəfləri, istərsə də atəşkəsin əldə olunmasında mühüm fəallıq göstərmiş qardaş Pakistanla da Xarici İşlər Nazirlikləri səviyyəsində sıx təmasdadır. Azərbaycan strateji müttəfiqi Türkiyə ilə də bölgədəki vəziyyəti davamlı olaraq müzakirə edir və gərginliyin azaldılması istiqamətində ortaq addımlarla bağlı danışıqlar aparılır.

## AZƏRBAYCANI FƏRQLƏNDİRƏN NƏTİCƏLƏR

Əslində Azərbaycanın fəallığı heç də təsadüfi deyil. Səbəbləri müasir dövrdə başlayan və gözləntiləri doğrultmayan hərbi qarşıdurmalar fonunda Azərbaycanın Vətən müharibəsində əldə etdiyi möhtəşəm nəticələr, postmünaqişə dövründə atdığı addımlarda axtarmaq lazımdır. Azərbaycan yeganə ölkədir ki, ali rəhbərliyin praqmatik və uzaqgörən siyasəti nəticəsində beynəlxalq hüquq prinsipləri çərçivəsində başlatdığı Vətən müharibəsini ən qısa müddətdə başa çatdırdı. Qarşıya qoyulan məqsədlərə maksimum dərəcədə nail oldu. İstər ən qısa vaxtda başa çatması düşünülən İran-ABŞ-İsrail müharibəsinin sonluğunun qeyri-müəyyənliyi, istərsə də artıq dörd ildən çoxdur davam edən Rusiya-Ukrayna qarşıdurmasının fəsadları Azərbaycanın qələbə və postmünaqişə dövründəki sülh təşəbbüslərinə dair təcrübəsini ön plana çıxarır.

Qeyd olunan hər iki müharibənin dünya iqtisadiyyatı üçün yaratdığı çətinliklər, dağıntıların miqyasının həddən artıq böyük olması, mülki insanlar arasında itkilərin, infrastrukturun məhvi miqyasının böyüklüyü də münaqişə tərəflərinin Azərbaycanın təcrübəsinə üz tutma ehtimalını artırır. Real faktlar və şərtlər məhz bunu diktə edir. Vətən müharibəsinin 44 gün ərzində yekunlaşması, antiterror əməliyyatlarının bir gündən az davam etməsi, mülki infrastruktura heç bir zərər verilməməsi, sadə vətəndaşlar arasında itkilərin qarşısının alınması, ən əsası isə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində müharibənin miqyasının əvvəlcədən müəyyən edilmiş çərçivədə qalaraq genişlənməməsi, qarşıya qoyulan hədəflərə tam olaraq nail olunması – budur dünyanın diqqətini hazırkı həssas məqamda cəlb edən Azərbaycan təcrübəsi. Təbii ki, sülh təşəbbüsləri və qalib dövlət olsaq da ali rəhbərliyin siyasi iradəsinə uyğun şəkildə ortaya qoyulan humanizm prinsipi də xüsusi qeyd olunmadır.

# NATO-NUN GƏLƏCƏYİ SUAL ALTINDA

NATO-dan çıxma prosesinə başlamaq üçün Tramp əvvəlcə Senatın üçdə ikisinin təsdiqini almalıdır. Hazırda o, buna yaxın deyil. Üstəlik, onun NATO-dan çıxmaq ideyası hətta Respublikaçılar Partiyasının Senat fraksiyası tərəfindən də alqışlanmır.



AZƏR NURİYEV

Rusiyanın Ukraynaya qarşı apardığı müharibə, Yaxın Şərqdə gərginlik, İrana qarşı ABŞ və İsrailin hücumu NATO ilə Vaşinqton arasındakı ziddiyyətləri pik həddə çatdırıb. Ağ Evin rəhbəri Donald Tramp Alyans üzvlərini ona lazımı dəstək verməməkdə ittiham edib, NATO-nu ciddi şəkildə zəifləmiş və Birləşmiş Ştatların son dərəcə etibarsız tərəfdaşı adlandırıb. Bu azmış kimi, o, ABŞ-ni NATO-dan çıxaracağı ilə hədələyib. Hesab edilir ki, Tramp İkinci Dünya müharibəsindən sonra qurulmuş qlobal təhlükəsizlik sisteminin əsas faktorlarından birini sarsıtmaq xəttini götürüb.



## ABŞ PREZİDENTİNİ CİDDİYƏ ALMIRLAR

### TRAMPIN NATO ANTİPATİYASI

Yeri gəlmişkən, NATO-nu günahlandırmaq hazırkı Ağ Ev rəhbərinin uzun müddətdir davam edən vərdişidir. İlk səlahiyyət müddətində də Tramp müdafiə xərclərini artırmağı tələb etməklə Avropa liderlərini təhdid etmişdi. Nəticədə o, buna nail oldu. Tramp ilk dəfə 2017-ci ildə NATO-nu islahatlara ehtiyacı olan "köhnəlmiş" təşkilat kimi təsvir edib. Elə həmin il əvvəlcə mediada, sonra isə rəsmilərin açıqlamalarında onun alyansı məhv etmək üçün çalışdığı barədə fərziyyələr ortaya çıxdı. İndi Tramp eyni şey barədə açıq danışıb. Son bir neçə gün ərzində o və komandası dəfələrlə ABŞ-nin hərbi blokdan çıxma ehtimalının ciddi şəkildə nəzərdən keçirildiyini təkrarlayıblar. ABŞ lideri əlavə edib ki, heç vaxt NATO-nu dəstəkləməyə meylli olmayıb: “Mən həmişə bilirdim ki, NATO sadəcə kağız pələngdir".

Tramp hazırda NATO-nun Yaxın Şərqdə hərbi əməliyyatlara dəstəyinin olmamasından narazıdır. İspaniya, Böyük Britaniya və Fransa hökumətləri ABŞ-yə İrana qarşı əməliyyatlar aparmaq üçün hərbi bazalarından və hava məkanlarından istifadə etməsinə icazə verməkdən imtina ediblər.

Bəs Trampın bəyanatı Avropada necə qarşılanıb? Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas ABŞ Prezidentinin təhdidləri ilə bağlı narahatlığını bildirib. O qeyd edib ki, NATO-da "heç kim amerikalıları əvəz edə bilməz". Dövlət liderləri isə ABŞ Prezidentinə daha ehtiyatla cavab veriblər. Trampın hərəkətlərini tez-tez tənqid edən Finlandiya Prezidenti Aleksandr Stubb ABŞ liderinə zəng etdiyini və onunla "konstruktiv söhbət" apardığını söyləyib. Fransa Prezidenti Emmanuel Makron ABŞ-nin NATO-dan çıxması ilə bağlı "çox danışıq" olmasından şikayətlənib. "Bir ittifaqa qoşulduğunuz zaman öhdəliklərinizi yerinə yetirirsiniz; onları hər səhər nəzərdən keçirmirsiniz, bunu edəcəyinizi və ya etməyəcəyinizi demirsiniz", - Makron deyib.



Donald Tramp

### ABŞ-NİN NATO-DAN ÇIXMASI REALDIRMI?

Yeri gəlmişkən, hərbi blokdan çıxma prosesinə başlamaq üçün Tramp əvvəlcə Senatın üçdə ikisinin təsdiqini almalıdır. Hazırda o, buna yaxın deyil. Üstəlik, NATO-dan çıxmaq ideyası hətta Respublikaçılar Partiyasının Senat fraksiyası tərəfindən də ciddi etirazla qarşılanıb. Məsələn, Konnektikutdan olan respublikaçı senator Kris Kuns və Kentukki senatoru Miç Makkonnell birgə bəyanat yayıblar. Bəyanatda Senatın Müdafiə Komitəsinin ABŞ-nin NATO-dan çıxmasına yönəlmiş hər hansı addıma qarşı çıxacağı barədə xəbərdarlıq edilib.



Emmanuel Makron

## NATO-NU DAĞITMAQ ÜÇÜN 5 SSENARİ

Bəs ABŞ Prezidentinin hansı variantları var?

Birinci ssenariyə görə Tramp NATO-nun ünvanına hədələri, tənqidləri gücləndirəcək.

İkinci ssenari əngəl yaratmaqdır. Tramp xüsusi səy göstərmədən NATO müttəfiqlərinin durumlarını çətinləşdirə bilər. Müəyyən mənada bu, artıq baş verir.

Üçüncü ssenari - ABŞ qoşunlarının Avropadan çıxarılmasıdır. Hazırda Köhnə Dünyada 31 daimi bazada və 19 hərbi obyektdə 67 500-dən 85 minə qədər ABŞ hərbi qulluqçusu yerləşdirilib. Burada Trampın manevr imkanları məhduddur: 2025-ci il qanununa əsasən, o, Avropada 76 min hərbi qulluqçu saxlamalıdır.

Kral Birləşmiş Müdafiə Tədqiqatları İnstitutunun baş müdafiə eksperti və keçmiş NATO rəsmisi Ed Arnoldun sözlərinə görə, əgər Tramp qanunla nəzərdə tutulan maksimum 9 min əsgəri Avropadan çıxarsa, bu, Şimali Atlantika alyansına "hiss olunan" zərər vuracaq, lakin fəlakət olmayacaq. Avropa müttəfiqləri ABŞ əsgərlərini əvəz edə bilər. Lakin Arnold bu ehtimalı yetərsiz sayır. Çünki Tramp Avropada hərbi texnika və şəxsi heyətin mövcudluğunu qorumaqda maraqlıdır ki, lazım gəldikdə onları münaqişə olacağı təqdirdə tez bir zamanda yerləşdirmək imkanı olsun.

Dördüncü ssenari ABŞ-nin NATO-dan “yumşaq" çıxışıdır. Tramp rəsmi tərk etmə qərarı olmadan da alyansı diz çökdürə bilər. Sonuncu, beşinci ssenari alyansdan "sərt" çıxışdır. NATO-dan rəsmi çıxış üçün mürəkkəb hüquqi maneələri dəf etmək lazımdır: texniki olaraq Tramp Senatın üçdə ikisinin dəstəyini almalı, bundan sonra alyansın təsis müqaviləsinin 13-cü maddəsinin icrasına keçməlidir. Bu proses isə bütöv bir il çəkəcək.

ABŞ Prezidenti beynəlxalq müqavilələrdən birtərəfli qaydada da çıxa bilər. Necə ki, onun qərarı ilə ABŞ 2020-ci ildə hava gəmilərinə qarşılıqlı nəzarət haqqında Açıq Səma Müqaviləsini tərk etmişdi. Rəsmi olaraq ABŞ məhkəmələri belə qərarları bloklaya bilər, amma adətən məhkəmə hakimiyyəti xarici siyasətə müdaxilə etmək istəmir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

“ELƏ DÖYÜŞLƏRDƏN ÇIXIRDIM, HEÇ KİM İNANMAZDI Kİ, ORADAN SAĞ QAYITMAQ OLAR”

# “SANKİ MƏNİ GÖZƏGÖRÜNMƏZ BİR QÜVVƏ QORUYURDU”

Milli Qəhrəman İbad Hüseynov: “Biz xoşbəxt adamlar idik ki, işğal altında olan torpaqlara qələbə ilə qədəm qoyduq. Sülh yolu ilə qədəm qoysaydıq, ürəyimizdə qisas hissi qalardı. Torpaqlarımızı döyüşərək işğaldan azad etməklə döyüş dostlarımızın, şəhidlərimizin də qisasını aldıq”.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Gənclərlə ünsiyyətdə olanda sevinirəm. Onlarda vətənpərvərlik hisslərini müşahidə etmək mənim üçün böyük sevincdir”. Birinci Qarabağ müharibəsi iştirakçısı, Milli Qəhrəman İbad Hüseynovun şagirdlərlə görüşündə söylədiyi bu fikirlər məktəblilər üçün vətənpərvərlik dərsi kimi səsləndi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə reallaşdırdığı “Məktəbdə...” layihəsinin növbəti görüşü Əhmədli qəsəbəsindəki Milli Qəhrəman İlqar Mirzəyev adına 98 saylı məktəbdə baş tutdu.

### DÜNYADA GÖRÜNMƏMİŞ QƏLƏBƏ

Qonaq məktəblilərdə vətənpərvərlik hissinin tərbiyə olunmasının vacibliyindən danışaraq əlavə etdi ki, bu, valideynlərdən gələn hiss olmalıdır: “Vətənpərvərlik hissi ailədə tərbiyə olunur. SSRİ dövründə məktəblərdə vətənpərvərlik ümumi təbliğ olunurdu. Amma biz indi müstəqil ölkənin vətəndaşlarıyıq. Müstəqil olandan sonra bu hissin nə qədər dərin və böyük olduğunu hiss etmişik”.

Qarabağ müharibəsindəki zəfərimizdən söz açan İ.Hüseynov dedi ki, vətənpərvər gənclər yetişməsəydi, müharibədə qələbə qazanmaq çətin olardı: “44 günlük müharibədə arxada dövlət, birləşmiş xalq, vahid komandanlıq vardı. Ordu ilə xalq Ali Baş Komandanın ətrafında birləşdi. Biz vətənpərvər gənclər yetişdirdik və onlar torpaqlarımızı xilas etdilər. Xalq “Dəmir yumruq” ətrafında birləşdi. Bizə qələbəni ordumuzun şücaəti ilə xalqın qəhrəman ruhu qazandırdı. Bu, dünyada görünməmiş bir qələbə idi”.

### “İLLƏRLƏ QOLTUQ AĞACLARI İLƏ GƏZMƏLİ OLDUM”

Milli Qəhrəman Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı fərqi belə izah etdi: “Birinci Qarabağ müharibəsində daha çox könüllülər vuruşurdu. Yemək, geyim, ən əsası - nizami ordu yox idi. Ağır dövr idi. Nizamsızlıq, pərakəndəlik vardı. Dağın o tərəfində nə baş verirdisə, bu tərəfin xəbəri yox idi. Həm də biz o zaman bütün dünyaya qarşı savaşırdıq. Əlimiz yalın idi. Amma torpaqlarımızı düşməndən azad etmək istəyirdik. Bütün Qarabağ əhalisində olduğu kimi Xocavənd rayonu əhalisinin də müdafiə üçün silah-sursatının olmadığını nəzərə alaraq, kəşfiyyat-diversiya dəstəsi yaratdım. Bu dəstə ilə erməni tərəfə keçərək, onları məhv edirdim. Ermənilərin çoxlu sayda silahını və təchizatını ələ keçirməyə başladım. 26 dekabr 1993-cü ildə tank əleyhinə minaya düşərək ağır yaralandım. Qəlpələr başıma, əlimə və ayaqlarıma girdi. 28 gün komada qaldım. Xilasıma heç bir ümid qalmamışdı. Moskvadan gəlmiş məşhur cərrah çıxılmaz vəziyyətimi görüb, heç nəyə zəmanət vermədiyini demişdi. Həkimlər beynimdə daxili qanaxmanı aşkar etdilər. İllərlə qoltuq ağacları ilə gəzməli oldum və xəstəxanalarda müalicə aldım. Uşaqlıqdan idmanla məşğul olduğum üçün sağlamlığım tezliklə qayıtdı. 9 oktyabr 1994-cü ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən “Azərbaycan Bayrağı Ordeni” ilə təltif edildim”.

“20 yaşım olanda qəhrəman olacağımı düşünmürdüm. Sonra xalq məni qəhrəman kimi qəbul etdi. Düşmənin canını ala-ala bu adı qazandım”

### “HƏRDƏN ÖZÜMÜ QINAYIRDIM Kİ, AXI NİYƏ MƏNƏ GÜLLƏ DƏYMİR”

Qonaq dedi ki, indi həmin günlər haqqında düşünəndə edilənlər özünə də möcüzə kimi görünür: “Hərdən mən də keçmişə baxanda inanmıram ki, o insan həqiqətən mən idim. Döyüşdə ani qərarlar verirdim və bütün qərarlarım doğru olurdu. Məndən arxada gələn yoldaşlarım şəhid olurdu, amma mənə heç nə olmurdu. Hərdən özümü qınayırdım ki, axı niyə mənə güllə dəymir? Bizim hərbi hissəmizdə şəhidlərin şəkillərindən ibarət böyük lövhə vardı, öz şəklimi də böyüdüb ora vurdum. Hərbi geyimim güllədən deşik-deşik idi, amma güllə oradan keçib bədənimə dəymirdi. Sanki məni gözəgörünməz bir qüvvə qoruyurdu. Elə döyüşlərdən çıxırdım, heç kim inanmazdı ki, oradan sağ qayıtmaq olar. Məsələn, bir dəfə dağda döyüşdə idik. Hər kəs çıxdı, mən qaldım. Yoldaşlarım gəlib deyiblər ki, İbadı öldürdülər. Bir neçə saatdan sonra isə mən çıxıb gəlmişdim. Bütün bunlar mənə də möcüzəvi görünür”.



Fotolar: Mahir Rüstəmov/Global Photostock

## “Hər zaman əsgər olmuşam, bu gün də əsgərəm”

İ.Hüseynov “Milli Qəhrəman” adına layiq görülməsindən qürurla danışdı: “Mənə müharibədən sonra “Türk dünyasının qəhrəmanı” adı verilmişdi. Türkiyənin ayrı-ayrı şəhərlərində adıma park salınmışdı, Adanada abidəm ucaldılmışdı. Məni Azərbaycanın qəhrəmanı kimi tanıyır və görüşlərə dəvət edirdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mənimlə görüşdü, “mənim qəhrəmanım” dedi. 2020-ci ildə “Azərbaycanın Milli Qəhrəmanı” adını Prezident İlham Əliyevin sərəncamı ilə alanda sevincim sonsuz idi. Bu adın verilməsini çoxdan gözləyirdim. Bu sərəncam mənim, general Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin haqqında eyni gündə verildi. Onlar ölümlərindən sonra, mən isə baş çavuş kimi aldım. Cənab Prezident sağ olsun ki, məni qiymətləndirdi. Mən hər zaman əsgər olmuşam, bu gün də əsgərəm. 20 yaşım olanda qəhrəman olacağımı düşünmürdüm. Sonra xalq məni qəhrəman kimi qəbul etdi. Düşmənin canını ala-ala bu adı qazandım”.

Milli Qəhrəman döyüşlərdə əsgər yoldaşlarının itkisindən doğan kədərə də toxundu: “Müharibədə sağalmaz yara çoxdur. Amma döyüş meydanında itirdiyin dostlarından böyük yara yoxdur. Bu, sağalmaz yaradır. Biz müharibədə döyüş dostlarımızı itirdik, amma 30 il işğalda olan torpaqlarımızı düşməndən geri aldıq. Biz xoşbəxt adamlar idik ki, işğal altında olan torpaqlara qələbə ilə qədəm qoyduq. Sülh yolu ilə qədəm qoysaydıq, ürəyimizdə qisas hissi qalardı. Torpaqlarımızı döyüşərək işğaldan azad etməklə döyüş dostlarımızın, şəhidlərimizin də qisasını aldıq”.



# AQRAR SEKTORDA "YAĞIŞ SINAĞI"



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Yağışlı hava kənd təsərrüfatı məhsullarının qiymətlərinə kəskin təsir göstərəcək. Xüsusilə yaz əkinlərinin gecikməsi və şitil sifarişlərinin kəskin azalması yaxın aylarda bazarlarda bahalaşmanı qaçılmaz edir.**

Son günlər ölkə ərazisində müşahidə edilən intensiv yağışlar kənd təsərrüfatı sektorunda həm yeni ümidlər, həm də ciddi narahatlıqlar yaradıb. Dəyişkən hava şəraitinin aqrar sahəyə göstərdiyi təsir hazırda əkin sahələrində çalışan fermerlərdən tutmuş bazardakı sıravi istehlakçılara qədər bütün vətəndaşların diqqət mərkəzindədir.

### "KÖK MEYVƏLİLƏR VƏ TƏRƏVƏZ BİTKİLƏRİ TƏHLÜKƏDƏDİR"

İqtisadçı Akif Nəsirlinin sözlərinə görə, son günlər ard-arda müşahidə edilən intensiv yağışlar kənd təsərrüfatı sektoruna həm müsbət, həm də mənfi təsir göstərməkdədir: "Yağıntıların əsas müsbət tərəfi torpağın təbii yolla nəmlənməsini təmin etməsi, fermerlərin suvarma xərclərini əhəmiyyətli dərəcədə azaltması və bitkilərin vegetasiya dövrü üçün zəruri olan rütubət balansını yaratmasıdır. Bu amil xüsusilə toxum səpimi, eləcə də payızlıq və yazlıq əkin kampaniyaları üçün olduqca əlverişli zəmin formalaşdırır. Lakin məsələnin digər tərəfi də var. Uzunmüddətli və aramsız yağıntılar torpaq qatının eroziyasına, əkin sahələrinin su altında qalmasına və nəticə etibarilə məhsulun zərər görməsinə gətirib çıxara bilər. Xüsusilə kök meyvəlilər və tərəvəz bitkiləri həddindən artıq rütubətə məruz qaldıqda, onlarda çürümə və müxtəlif xəstəliklərin inkişaf riski kəskin artır. Bu cür hava şəraiti, həmçinin bəzi taxıl sahələrində dənli bitkilərin keyfiyyət göstəricilərini aşağı salaraq, ümumi məhsuldarlığa ciddi zərbə vura bilər. Müşahidələr göstərir ki, son intensiv yağışlar regionların xüsusiyyətlərindən asılı olaraq məhsula fərqli təsir edib. Bəzi ərazilərdə torpaq yetərincə nəmlənib və əkinlərin inkişaf dinamikası sürətlənib. Lakin digər bölgələrdə lokal su basmaları və xəstəliklər təsərrüfatlara artıq ziyan vurmağa başlayıb. Bu prosesdə ən çox risk altında olanlar torpağın rütubət səviyyəsinə xüsusilə həssas olan soğan və tərəvəz bitkiləridir".



Akif Nəsirli

A.Nəsirli bildirir ki, yaranmış vəziyyətdə ilk növbədə, əkin sahələri üzərində nəzarət gücləndirilməlidir. Su basmış və ya çürüməyə meylli ərazilərdə təcili drenaj işləri aparılmalı, bitki xəstəliklərinin yayılmasının qarşısını almaq məqsədilə profilaktik müalicə və qoruyucu tədbirlərə başlanılmalıdır.

İqtisadçının fikrincə, yağışlar fonunda qiymətlərin formalaşması birbaşa məhsulun həm ümumi həcmindən, həm də keyfiyyətindən asılı olacaq: "Əgər məhsulun əhəmiyyətli hissəsi itərsə, bazarda təklif azalacaq ki, bu da qiymət artımına səbəb olacaq. Əks ssenaridə isə, əgər yağıntılar ümumi məhsul bolluğu yaradarsa, qiymətlərdə azalma müşahidə edilə bilər".

### "YAZDA ƏKİLƏN MƏHSULLAR ÜÇÜN VƏZİYYƏT ÜRƏKAÇAN DEYİL"

Aqrar ekspert Eldar Hüseynov bildirdi ki, intensiv yağıntıların kənd təsərrüfatına təsiri fərqlidir. Dənli bitkilər, taxıl və buğda sahələri üçün bu cür hava şəraiti olduqca əlverişlidir. Belə ki, həmin bitkilər yeraltı sularla qidalanacaq ki, bu da məhsuldarlığa müsbət təsir göstərəcək və qışlıq məhsullarda heç bir problem yaşanmayacaq: "Lakin yaz və yay üçün nəzərdə tutulan, xüsusən də yazda əkilən məhsullar üçün vəziyyət heç də ürəkaçan deyil. Məsələn, yağıntılar səbəbindən fermerlər artıq 20 gündür ki, kök əkinini həyata keçirə bilmirlər. Torpaq şumlanıb hazırlansa da, aramsız yağışlar çatların yaranmasına səbəb olur və əkin prosesini dayandırır. Bununla yanaşı, Sabirabad, Saatlı və İmişli rayonlarında qarpız, o cümlədən polietilen örtükaltı badımcan əkinində müəyyən çətinliklər yaranıb. Təbii amillər ən çox Aran və şimal bölgələrinə mənfi təsir göstərib. Şimalda açıq sahədə pomidor əkinləri ciddi ziyan görüb. Eyni zamanda, Mil-Muğan zonasında - Bərdə, Beyləqan və Ağcabədi rayonlarında yaz əkini üçün hazırlanan pomidor və bibər şitilləri itkiyə məruz qalıb. Nəzərə almaq lazımdır ki, bu bölgə məhsuldarlıq baxımından şimaldan təxminən 20 gün – 1 ay daha öndədir. Həmçinin Sabirabadda əkilməsi planlaşdırılan qarpız şitillərini hələ də sahəyə köçürmək mümkün olmayıb. Əkilmiş və sel suları altında qalan məhsullara gəldikdə isə, bu hala əsasən Quba bölgəsində rast gəlinib. Çayların daşması nəticəsində yeni salınmış moruq və çiyələk sahələri tamamilə su altında qalaraq sıradan çıxıb".

## "Xəstəliklər yarana bilər"

E.Hüseynovun sözlərinə görə, mövcud vəziyyətin fonunda bazarlarda yaxın vaxtlarda hər hansı ucuzlaşma gözlənilmir: "Təsadüfi deyil ki, son zamanlar çəhrayı pomidorun qiymətində də kəskin bahalaşma müşahidə edilir. Azərbaycanda 500 hektardan çəhrayı pomidor yığılmalı olduğu halda, hazırda bazarda cəmi 10 hektarın məhsulu var ki, bu da tələbatı ödəmir. Çünki məhsulun böyük bir qismi Rusiyaya və Polşa üzərindən Avropaya ixrac olunur. Bütün bu ixrac və təklif azlığı fonunda daxili bazarda pomidorun qiyməti hələ bir müddət baha olaraq qalacaq". Ekspertin fikrincə, digər narahatedici məqam intensiv yağışların ardınca günəşli havanın müşahidə olunmasıdır: "İstixanalarda yaranan nəmlik və torpaqdakı məhsulun üzərinə düşən günəş şüaları avtomatik olaraq bakterial xəstəliklərin oyanmasına gətirib çıxaracaq. Ümumi mənzərəyə əsasən, bu il pomidorun baha olacağı qətidir. Şitilçilik və istixana sektorundakı mövcud vəziyyətə əsasən deyə bilərik ki, bu il əkinlərin həcmində də ciddi azalma var. Müqayisə üçün qeyd edək ki, ötən il istixana təsərrüfatlarında şitil üçün 7 milyon pomidor toxumu sifariş verilmişdisə, bu il həmin rəqəm cəmi 1,5 milyona düşüb".



Eldar Hüseynov



# RƏQƏMSAL MALİYYƏDƏ KİBERTƏHLÜKƏSİZLİK




Son dövrlərdə mobil ödəniş platformalarında hesabların dondurulması və vəsaitlərin təhlükəsizliyi ətrafında baş verənlər rəqəmsal maliyyə ekosistemində təhlükəsizlik mexanizmlərinin vacibliyini bir daha gündəmə gətirib. Bəs bu hadisədən hansı dərslər çıxarılmalıdır?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda mobil ödəniş və rəqəmsal pul kisəsi xidmətlərinin sürətli genişlənməsi maliyyə əməliyyatlarının daha rahat və operativ aparılmasına imkan yaradır. Lakin bu inkişafla paralel olaraq kibertəhlükəsizlik məsələləri də daha aktual xarakter alır. Son dövrlərdə mobil ödəniş platformalarından biri ilə bağlı hesabların dondurulması və vəsaitlərin təhlükəsizliyi ətrafında yaranan müzakirələr rəqəmsal maliyyə ekosistemində təhlükəsizlik mexanizmlərinin vacibliyini bir daha gündəmə gətirib.

### HƏDƏF ORTA VƏ YAŞLI NƏSİL NÜMAYƏNDƏLƏRİDİR

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti İlkin Əzməmmədov bildirdi ki, istifadəçi vəsaitlərinin qorunması prosesində təşkilatlarla yanaşı vətəndaşlar da aktiv iştirak etməlidirlər: "Bəzən kibercinayətkarlar vətəndaşları müxtəlif üsullarla şirnikləndirərək onların onlayn pul kisəsi məlumatlarından istifadə etməyə çalışırlar. Vətəndaşlar heç bir halda öz məlumatlarını və kabinet girişlərini başqaları ilə bölüşməməlidirlər. Orta və yaşlı nəsil nümayəndələrinin texnologiyadan daha az istifadə etməsini nəzərə alaraq, maliyyə təşkilatları onlayn ödənişləri istifadəçinin istəyi ilə aktivləşdirsələr, məsuliyyəti daha balanslı bölüşmüş olarlar".

Mütəxəssis bildirir ki, kibercinayətkarların hədəfi çox vaxt orta və yaşlı nəsil nümayəndələri olur: "Bunun qarşısını almaq üçün texnologiyadan az istifadə edən vətəndaşların bank hesablarında onlayn ödəniş funksiyalarının standart olaraq bağlı olması daha təhlükəsiz hesab oluna bilər. Kibertəhlükəsizliyin qorunması ilə bağlı Mərkəzi Bankın tələbləri kifayət qədər sərtdir. Banklar da bu istiqamətdə təhlükəsizliyi təmin etmək üçün ciddi tədbirlər görürlər. Bir çox hallarda vəsait oğurluğu vətəndaş səhvləri səbəbindən baş verir. Məsələn, istifadəçilər öz məlumatlarını başqaları ilə bölüşə və ya telefonlarına lisenziyası sındırılmış mobil tətbiqlər yükləyə bilirlər".



İlkin Əzməmmədov



Araz Əhmədov

## "Məsuliyyətin böyük hissəsi istifadəçilərin üzərinə düşür"

AKTA mütəxəssisi kibertəhlükəsizlik insidentlərini belə izah edir: "Məsələn, "Telegram" və ya "WhatsApp" üzərindən vətəndaşlara yazaraq müəyyən məbləğdə pul təklif edir və onların şəxsi kabinet məlumatlarından istifadə etməyə çalışırlar. Vətəndaş çox vaxt bilmir ki, onun şəxsi kabineti onlayn qumar oyunları və ya digər vətəndaşlardan oğurlanmış pulların xaricə köçürülməsi üçün istifadə oluna bilər. Digər bir misal olaraq, kibercinayətkarlar vətəndaşların yaxınlarının adından yazaraq borc kimi pul istəyirlər. Vətəndaş yaxınları ilə dəqiqləşdirmədən pul göndərərsə, vəsaiti oğurlana bilər. Hər bir şəxs bilməlidir ki, dövlət qurumlarının və ya maliyyə təşkilatlarının vətəndaşların şəxsi kabinet və ya kart məlumatlarına heç vaxt ehtiyacı olmur. Bəzən vətəndaşlar məlumat paylaşmadıqlarını desələr də, vəsait oğurluğu baş verə bilir. Bir çox hallarda telefonlar yoxlanıldıqda lisenziyası sındırılmış tətbiqlərə rast gəlinir. Bu tətbiqlər kibercinayətkarlar üçün arxa qapı rolunu oynaya və onların telefonlara daxil olaraq maliyyə tətbiqlərindəki vəsaitləri oğurlamasına şərait yarada bilər".

Çıxış yoluna gəldikdə isə, mütəxəssis vurğulayır ki, platformalar xaricə pul köçürmələrini, onlayn ödənişləri və şəxsi kabinetlərə daxilolmaları izləmə kimi təhlükəsizlik tədbirləri tətbiq edə bilərlər: "Şübhəli hesab olunan əməliyyatlar avtomatik bloklanaraq yalnız vətəndaşın təsdiqindən sonra icra oluna bilər. Texnologiyadan daha az istifadə edən vətəndaşlar üçün isə xaricə onlayn ödəniş funksiyalarının standart olaraq deaktiv edilməsi əlavə təhlükəsizlik qatını təmin edə bilər. Texnologiya sürətlə inkişaf edir və bu inkişafla paralel olaraq yeni təhlükəsizlik boşluqları da yaranır. Kibertəhlükəsizlik sistemində ən zəif halqa çox vaxt insan faktoru hesab olunur. Milyonlarla manat həcmində kibertəhlükəsizlik investisiyası belə, bir insan səhvi nəticəsində risk altına düşə bilər".

### SƏHVLƏRİN TƏKRARLANMAMASI ÜÇÜN...

İ.Əzməmmədov vurğuladı ki, hər təşkilat və vətəndaş səhvlərin təkrarlanmaması üçün mümkün tədbirləri görməyə çalışır. Lakin internet mühiti hələ də kəşf edilməmiş çoxsaylı boşluqlarla zəngindir: "Texnoloji boşluqlardan istifadə etmək mümkün olmadıqda isə diqqət daha çox insanların məlumatlılıq səviyyəsinə yönəlir. Kibertəhlükəsizlik sahəsində əsas prinsip kibercinayətkarları qabaqlamaqdır".

### "HEÇ BİR SİSTEM 100% TƏHLÜKƏSİZ DEYİL"

İnformasiya texnologiyaları üzrə sistem mühəndisi Araz Əhmədov bildirir ki, rəqəmsal pul kisələrində təhlükəsizlik çoxqatlı yanaşma ilə təmin olunmalıdır: "Bunun üçün "end-to-end" şifrələmə, iki və ya çoxfaktorlu autentifikasiya (2FA/MFA), tokenizasiya və süni intellekt əsaslı dələduzluq monitorinq sistemləri tətbiq edilir. Bu texnologiyalar məlumatların ötürülməsi, saxlanılması və qeyri-adi əməliyyatların aşkarlanması zamanı təhlükəsizliyi artırır".

Mütəxəssis qeyd edir ki, kibertəhlükəsizlik insidentləri əsasən texniki boşluqlar və sosial mühəndislik hücumları nəticəsində baş verir: "Fişinq və saxta saytlar vasitəsilə istifadəçi məlumatlarının ələ keçirilməsi buna nümunədir. Ən zəif həlqə çox zaman texnologiya deyil, istifadəçi diqqətsizliyidir".

Həmsöhbətimiz qeyd edir ki, rəqəmsal maliyyə sistemlərində etimad əsas amillərdəndir: "Buna görə platformalar və istifadəçilər təhlükəsizlik qaydalarına ciddi əməl etməlidirlər. Heç bir sistemin 100% təhlükəsiz olmadığı nəzərə alınaraq, təşkilatlar potensial kibertəhlükələrə qarşı əvvəlcədən hazırlıqlı olmalı və cavab planları hazırlamalıdır. Vətəndaşlara isə riskləri azaltmaq üçün vəsaitləri müxtəlif kanallarda bölüşdürmək tövsiyə olunur".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi
11 APREL ŞƏNBƏ 2026



## MAŞIN BAZARINDA HAMINI TƏƏCCÜBLƏNDİRƏN MƏNZƏRƏ YARANIB

# AVTOMOBİL BAZARINDA İQTİSADİ PARADOKS



**Rüsumların artırılmasına baxmayaraq, bazarda tələbi kəskin üstələyən süni təklif bolluğu Çin avtomobillərinin qiymətini minimuma salıb. Kütləvi paralel idxal və investorların "maya dəyərinə" təcili satışları bazarda durğunluq yaradıb.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Cari ilin əvvəlində hibrid və elektrik mühərrikli avtomobillər üçün tətbiq edilən vergi güzəştlərinin ləğvi yerli avtomobil bazarında ciddi ajiotajla qarşılanmışdı. İlkin ehtimallara və ekspert proqnozlarına görə, qanunvericilikdəki bu dəyişikliyin ardınca ölkəyə idxal olunan, xüsusilə də son illər yollarımızda kütləviləşən Çin istehsalı avtomobillərin qiymətində ən azı 20 faizlik artım gözlənilirdi. Lakin geridə qalan aylar tamamilə fərqli və gözlənilməz bir iqtisadi mənzərəni ortaya çıxarıb. Real bazarda nəinki proqnozlaşdırılan bahalaşma qeydə alınmayıb, əksinə, iqtisadi məntiqlə ziddiyyət təşkil edən bir tendensiya formalaşıb. Müşahidələr göstərir ki, hazırda ən çox tələb görən populyar Çin avtomobilləri ötən ilin sonundakı rəqəmlərlə müqayisədə 1000-2000 manat daha aşağı qiymətə təklif edilir. Bəs gözləntiləri alt-üst edən bu vəziyyətin əsl səbəbi nədir?

## "Ölkəyə kifayət qədər avtomobil gətirilib"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının sədri Eyyub Əliyevin sözlərinə görə, qiymətlərin artmamasına səbəb bazardakı bolluqdur: "Son iki ildə ölkəyə paralel idxal vasitəsilə yəni rəsmi diler olmayan fərdi şəxslər və kiçik salonlar tərəfindən kifayət qədər avtomobil gətirilib. Ötən il isə bu proses pik həddə çatdı. Vəziyyət o yerə gəlib çatdı ki, peşəsindən asılı olmayaraq hər kəs avtomobil idxal etdi. Hibrid avtomobillər üçün tətbiq edilən güzəşt müddətinin başa çatacağı ilə bağlı müvafiq qərar qəbul edildikdən sonra bazarda kütləvi ajiotaj yarandı. Növbəti ilin rüsumlarından azad olmaq və nəqliyyat vasitələrini ölkəyə güzəştli şərtlərlə daxil etmək məqsədilə insanlar tələsik avtomobil gətirməyə başladılar.




Bu zaman gömrük rəsmiləşdirilməsi müxtəlif şəxslərin adlarına həyata keçirilirdi. Prosesə həmçinin xüsusi investorlar cəlb edərək ölkəyə kütləvi şəkildə avtomobil idxal edən şəxslər də qoşulmuşdu. Avtomobil biznesi ilə məşğul olan bir şəxs müxtəlif miqdarda 100 min, 200 min və ya 300 min manat həcmində sərmayə yatıran investorları cəlb edir və idxal prosesini mərkəzləşdirilmiş şəkildə təşkil edirdi".

## TƏLƏBİ ÜSTƏLƏYƏN TƏKLİF BOLLUĞU

E.Əliyev bildirdi ki, nəticə etibarilə, bazarda tələbi kəskin şəkildə üstələyən təklif bolluğu formalaşdı.

Bu vəziyyətin fonunda isə avtomobillərin satışı səngidi: "Əvvəllər gətirilən maşını üç gün ərzində satıb mənfəət əldə etməyə öyrəşən investorlar gözlənilməz mənzərə ilə üzləşdilər. Yanvar ayında satışlar azaldı, fevralda demək olar ki, dayandı, mart ayından etibarən isə avtomobillərin bazar dəyəri kəskin şəkildə düşməyə başladı. Qiymətlərin enməsi investorları təşvişə saldı. Yatırdıqları sərmayəni geri götürüb bazardan çıxmaq və ya gələcəkdə daha ehtiyatlı addımlar atmaq istəyən investorlar satıcıları tələsdirməyə, maşınları hətta "maya dəyərinə" satmağı tələb etməyə başladılar. Nəticədə vəsaitləri qaytarmaq məcburiyyətində qalan satıcılar çətin vəziyyətə düşdülər. Çıxış yolu kimi heç bir gəlir əldə etmədən avtomobilləri təcili satmağa başladılar".



Eyyub Əliyev

### "UCUZLAŞMA TENDENSİYASI ARADAN QALXACAQ"

Sədrin fikrincə, bu tendensiya müvəqqəti xarakter daşıyır: "Hazırda bəzi nəqliyyat vasitələri hətta ötənilki qiymətlərdən də aşağı dəyərə təklif olunur ki, bu da bazarda unikal bir durğunluq mənzərəsi yaradıb. Ehtimal olunur ki, hazırkı avtomobil ehtiyatları tükəndikdən və ölkəyə yeni, rüsumla rəsmiləşdirilmiş partiyalar daxil olduqdan sonra qiymətlər yenidən tənzimlənəcək".

### İSTEHSALÇILARA VƏ YERLİ İSTEHLAKÇILARA GÜZƏŞT

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) iqtisadiyyat kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Emin Qəribli də düşünür ki, ötən il vergi dəyişikliklərinin tətbiq ediləcəyini əvvəlcədən bilən idxalçılar kütləvi şəkildə avtomobil alaraq anbarlarda böyük ehtiyatlar formalaşdırdılar. Məhz bu səbəbdən cari ildə bazarda dinamika və tələbat olsa da, qiymətlərdə artım müşahidə edilmir: "Çünki mövcud stoklar hesabına təklif tələbi xeyli üstələyir. Digər mühüm amil isə avtomobillərin fiziki şəxslər tərəfindən idxal edilməsidir. Bu qəbildən olan şəxslər üçün əlavə dəyər vergisinin (ƏDV) nəzərdə tutulmaması onlara nəqliyyat vasitələrini daha rahat və rəqabətədavamlı qiymətlərlə satmağa imkan yaradır".



Emin Qəribli

## Təchizat zəncirində qırılma baş verərsə...

E.Qəribli bildirdi ki, gələcək qiymət dinamikasını birmənalı şəkildə proqnozlaşdırmaq çətindir. Bu, bir neçə qlobal faktordan asılıdır: "Hazırda dünyada alternativ enerji mənbələri ilə çalışan avtomobillərə qlobal bir keçid trendi var. Bu tələbata uyğun olaraq istehsal həcmi, xüsusən də Çin şirkətlərinin bazardakı payı artır. Çin hökuməti həm istehsalçılara, həm də yerli istehlakçılara müxtəlif vergi güzəştləri və subsidiyalar tətbiq edir. Ölkəmizə gətirilən avtomobillərin müəyyən bir qismi də məhz həmin yerli istehlakçılara yönəlmiş güzəştli maşınlar hesabına formalaşır".

İqtisadçının fikrincə, əgər bu təchizat zəncirində hər hansı qırılma baş verərsə, qiymətlərin bahalaşması qaçılmaz olacaq: "Qiymət artımını şərtləndirə biləcək əsas risk faktorlarına Azərbaycanda vergi dərəcələrinin ehtimal olunan artımı, dünyadakı geosiyasi münaqişələr fonunda logistika və nəqliyyat xərclərinin yüksəlməsi, eləcə də Çin hökumətinin subsidiyaları azaltması daxildir".

# QİYMƏTLƏNDİRMƏDƏ ETİMAD, ŞƏFFAFLIQ VƏ İNNOVASİYA

Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyinə həsr olunmuş konfransda Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Misir, Cənubi Afrika Respublikası və Keniyadan, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatlardan ümumilikdə 200-dən artıq nümayəndə iştirak edir.




Dövlət İmtahan Mərkəzinin (DİM) 10 illik yubileyinə həsr olunmuş "Qiymətləndirmə sistemləri: etimad, şəffaflıq və innovasiya" mövzusunda beynəlxalq elmi-praktik konfrans işə başlayıb. Konfransın işində Azərbaycanla birgə Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Misir, Cənubi Afrika Respublikası və Keniyadan, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatlardan ümumilikdə 200-dən artıq nümayəndə iştirak edir.

**MƏKTƏB PARTASINDAN PEŞƏKAR FƏALİYYƏTƏ QƏDƏR MÜŞAYİƏT**

Tədbirdə çıxış edən DİM sədri Mələykə Abbaszadə bildirib ki, bu gün rəhbərlik etdiyi qurumun onilliyi qeyd olunur: "Bu, bizim üçün sadəcə təqvimdəki tarix deyil, milyonlarla vətəndaşımızın həyat yolunun ayrılmaz hissəsinə çevrilmiş bir təşkilatın inkişafında mühüm mərhələdir. Son 10 il ərzində imtahan zallarımızdan altı milyondan çox insan keçib: Bu, bütöv bir nəslin təhsil və həyat trayektoriyasıdır. DİM artıq universitetə qəbul olmaq üçün sadə seçim mexanizmi olmaqdan kənara çıxıb. Biz ədalət infrastrukturunun mühüm elementinə çevrilmişik.

Biz vətəndaşı məktəb partasından peşəkar fəaliyyətə qədər müşayiət edirik. Ölkə rəhbərliyinin davamlı dəstəyi sayəsində biz təhsil və kadr siyasəti sahəsində proseslərin təhlili üçün dövlətə etibarlı empirik əsas verən unikal məlumat bazaları formalaşdırmışıq".

## "Texnologiyalar insanın fərdiliyini zəiflədir"

DİM sədri qeyd edib ki, texnologiyalar insanın fərdiliyini zəiflədir: "Dövlət İmtahan Mərkəzində biz bunun əksini sübut etməyə çalışırıq. Texnologiyalar şəffaflığı və imkanların bərabərliyini qoruyur. Bizim "Bunker", onlayn proktorinq (nəzarət) sistemləri, tapşırıqların generasiyası və qiymətləndirilməsi alqoritmləri prosesin obyektivliyini təmin edən alətlərdir".

M.Abbaszadə bildirib ki, DİM hər il 15 milyondan çox elektron xidmət göstərərək, rəqəmsal idarəetmə prinsiplərini gündəlik həyata tətbiq edir: "Rəqəmsal dövrdə yalnız toplanmış biliklərin həcmini qiymətləndirmək artıq kifayət etmir. Azərbaycan dili üzrə Sertifikasiya İmtahanı (ADSİ) kimi milli standartların işlənib-hazırlanması, öz kompetensiya modellərimizin yaradılması beynəlxalq peşəkar dialoqa verdiyimiz töhfədir. Əsas prioritetimiz insan mərkəzli yanaşmadır".

Elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, məhz 2016-2017-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının DİM-ə keçidi zamanı imtahanların yalnız təhsil müəssisələrinə qəbulu yox, imtahanların dəyərləndirilməsi də qarşıya qoyulmuşdu. Həmçinin, imtahanların məzmununun dəyişməsində əhəmiyyətli addımlar atıldı: "Açıq tipli sualların imtahanlarda istifadəsi, buraxılış imtahanlarında xarici dil fənninin yer alması və digər bu kimi addımlar həmin dəyişikliklərdəndir. Biz artıq bu dəyişikliklərin nəticələrini görməyə başlamışıq. Buraxılış imtahanlarında xarici dil fənninin yer alması nəticəsində 2022-2023-cü ildən etibarən xarici dil biliklərinin yaxşılaşmasını görürük. İmtahanlarda informatika fənninin yer alması ilə şagirdlərin bilik və bacarıqlarında müsbət dəyişiklikləri də gördük".



# SOCAR-"Itochu" əlaqələri müzakirə olunub

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Yaponiyanın "Itochu" Korporasiyası arasında əlaqələrin genişləndirilməsi istiqamətində görülən işlər müzakirə olunub.

"Report" SOCAR-a istinadən xəbər verir ki, müzakirələr şirkətin prezidenti Rövşən Nəcəfin Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin sədri və "Itochu"nun baş əməliyyat direktoru Tetsuya Yamada ilə görüşündə aparılıb.

Görüşdə SOCAR ilə "Itochu" arasında uzun illərdir davam edən uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Söhbət zamanı enerji sektorunun müxtəlif istiqamətləri, o cümlədən kəşfiyyat, hasilat və neft-kimya sahələri üzrə əməkdaşlıq imkanlarına, qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# "NAR" İNKLÜZİV TƏŞƏBBÜSƏ QOŞULUB

Sərfəli mobil operator "Nar" Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "İmkanlar hər kəs üçün" layihəsi çərçivəsində əlilliyi olan şəxslər üçün nəzərdə tutulan təcrübə proqramına ev sahibliyi edir. Proqramın əsas məqsədi iştirakçıların real korporativ iş mühitinə inteqrasiyasını dəstəkləmək, onların peşəkar bacarıqlarını inkişaf etdirmək və inklüziv əmək mühitini təşviq etməkdir. Layihə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və BMT-nin Məskunlaşma Proqramının birgə təşəbbüsü olan Azərbaycan Şəhərsalma Kampaniyası çərçivəsində keçirilir.

Qeyd edək ki, aprel ayı ərzində davam edəcək proqramda iştirakçılar "Nar"ın müxtəlif departamentlərində təcrübə keçirlər. Ümumilikdə 30 nəfərdən ibarət iştirakçı qrupu real iş mühiti ilə tanış olur, gündəlik iş proseslərində iştirak edir və praktiki biliklərini inkişaf etdirir.

Xatırladaq ki, "Nar" sosial məsuliyyət strategiyası çərçivəsində inklüzivliyin təşviqinə xüsusi önəm verir. Şirkət müxtəlif bacarıqlara və fərqli həyat təcrübələrinə malik şəxslər üçün əlçatan və bərabər imkanlar yaradan iş mühitinin formalaşdırılmasını prioritet hesab edir. Bu cür təşəbbüslərlə mobil operator həm inklüziv korporativ mədəniyyətin inkişafına, həm də cəmiyyətdə mövcud stereotiplərin aradan qaldırılmasına töhfə verməyə davam edir. "Nar"ın həyata keçirdiyi digər sosial layihələr haqqında daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.




Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 478
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# RƏQƏMSAL RAHATLIQ VƏ ARTAN NARAZILIQ

NFC ödənişləri ilə bağlı gecikmələrin əsas səbəbi nəqliyyat sistemi ilə bank infrastrukturu arasında sinxronizasiyanın real vaxtda aparılmamasıdır. Bu sistem rahatlıq yaratsa da, mövcud gecikmələr göstərir ki, sistemin texniki dayanıqlığı və istifadəçi ilə kommunikasiya hələ də təkmilləşdirilməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Rəqəmsallaşma ictimai nəqliyyat sektorunda da ənənəvi ödəniş vərdişlərini sürətlə dəyişir. Nağdsız ödənişlər, xüsusilə NFC texnologiyası son illərdə sərnişinlər üçün həm sürət, həm də rahatlıq baxımından əsas alternativə çevrilib. Lakin son aylarda bu rahatlığın fonunda ciddi narazılıqlar yaranıb. Sərnişinlərin bir qismi nəqliyyatda bank kartlarından istifadə etmədikləri halda vəsait çıxıldığını, digərləri xərclərdən artıq məbləğin, bəzən bir gediş haqqının iki-üç dəfə çıxıldığını iddia edir, bəziləri isə kartlarının əsassız yerə məhdudlaşdırıldığını bildirirlər. Sosial şəbəkələrdə səslənən fikirlərdə qeyd olunur ki, bu ödənişlər əvvəlki uğursuz əməliyyatların əvəzində deyil, sistem tərəfindən sonradan avtomatik şəkildə həyata keçirilir. Xüsusilə son vaxtlar paytaxtda ictimai nəqliyyatdan istifadə edən sərnişinlər metro və avtobuslarda NFC vasitəsilə ödəniş edərkən "kart məhdudlaşdırılıb" bildirişi ilə tez-tez qarşılaşırlar.

### GECİKMƏ HARADAN YARANIR?

Məsələnin əsas səbəbi ödənişin təsdiqi ilə vəsaitin faktiki silinməsi arasında yaranan zaman fərqidir. NFC ödənişlərində əməliyyat dərhal "uğurlu" kimi qeydə alınsa da, vəsait bank hesabından real vaxtda çıxılmır. Bu gecikmə bir neçə saat, bəzən günlərlə davam edə bilər. Nəticədə istifadəçi kartında kifayət qədər vəsait olduğunu düşünsə də, əvvəlki əməliyyatlar sistemdə "borc" kimi qalır və sonradan toplu şəkildə silinir. Xüsusilə oktyabr-aprel aylarında həyata keçirilmiş əməliyyatların bir hissəsinin gecikmə ilə emal olunması bu problemi daha da qabarıq göstərib. Hətta "Bakıkart" bununla bağlı açıqlama yayıb.

### RƏSMİ AÇIQLAMA

"Bakıkart"dan bildirilib ki, oktyabr-aprel aylarında NFC funksiyası olan bank kartları ilə həyata keçirilmiş və ödəniş zamanı silinməmiş vəsaitlərin 06.04.2026-cı ildən etibarən mərhələli şəkildə silinməsinə başlanılıb və bu proses başa çatdıqdan sonra məhdudiyyətlər aradan qaldırılacaq: "Ödəniş əməliyyatları dərhal icra edilsə də, vəsaitin silinməsi ilə bağlı bildirişlər sizə gecikmə ilə (bir neçə saat və ya gün sonra) təqdim oluna bilər. Bu səbəbdən bəzi hallarda qeyd olunan bank kartlarına ictimai nəqliyyat ödənişləri üzrə müvəqqəti məhdudiyyət tətbiq olunur. Xahiş edirik, bank kartlarınızda ödəniş əməliyyatları üçün kifayət qədər vəsait saxlayasınız. Borc məbləği hesabınızdan silindikdən sonra bu məhdudiyyət aradan qaldırılacaq və bank tərəfindən sizə bildiriş təqdim olunacaq. Silinən məbləğləri bankınızın kart tarixçəsində görə biləcəksiniz".

## "TRANZAKSİYA MƏLUMATLARI PAKET ŞƏKLİNDƏ TOPLANIR"

Qurumun məlumatına görə, "Bakıkart" tərəfindən tətbiq edilən ödəniş sistemi həm "bir dəfəlik keçid imkanı", həm də "gecikdirilmiş avtorizasiya" prinsiplərini əhatə edir. "Bir dəfəlik keçid" funksiyası sayəsində kart balansı müvəqqəti kifayət etmədiyi hallarda belə sərnişin ictimai nəqliyyat vasitəsindən istifadə edə bilər, balans bərpa olunduqda ödəniş avtomatik tutulur. Qurumdan bildirilir ki, bu funksiya ödəniş əməliyyatlarının çevik şəkildə, bir saniyənin altında aparılmasını təmin edir. Gecikdirilmiş avtorizasiya isə ödəniş əməliyyatlarının texniki səbəblərdən sonradan rəsmiləşdirilməsinə imkan verir.

### "GECİKMİŞ SİLİNMƏ" GÖRÜNTÜSÜ NECƏ YARANIR?

İKT üzrə ekspert Elvin Abbasov bildirir ki, gecikmələrin əsas səbəbi nəqliyyat sistemi ilə bank infrastrukturu arasında sinxronizasiyanın real vaxtda aparılmamasıdır: "Validatorda kart oxunarkən sistem ilk növbədə kartın aktivliyini yoxlayır, lakin vəsaitin real vaxt rejimində silinməsi üçün hər bir avtobusdan banka anlıq sorğu göndərilməsi şəbəkə yüklənməsinə səbəb ola bilər. Bu səbəbdən tranzaksiya məlumatları paket şəklində toplanır və müəyyən fasilələrlə banka ötürülür ki, bu da "gecikmiş silinmə" görüntüsü yaradır".

E.Abbasovun sözlərinə görə, rabitə problemləri və texniki uyğunsuzluqlar da bu prosesə təsir edir: "Avtobus hərəkətdə olarkən validatorun internet bağlantısı zəiflədikdə məlumatların serverə ötürülməsi . Həmçinin bəzi smartfonların NFC modullarının validatorla sürətli əlaqə qura bilməməsi və ya token mübadiləsinin ləngiməsi ödənişin uğursuz olması və kartın qara siyahıya düşməsi ilə nəticələnir".

### "SƏRNİŞİNLƏR ÜÇÜN MALİYYƏ QEYRİ-MÜƏYYƏNLİYİ YARADIR"

Gecikmiş ödənişlər sərnişinlər üçün maliyyə qeyri-müəyyənliyi yaradır. İstifadəçi balansının yetərli olduğunu düşündüyü halda, əvvəlki gediş haqları sonradan silindikdə balans mənfiyə düşə bilər. Bu isə xüsusilə debet kartlarda gözlənilməz bloklanmalara və digər ödənişlərin gecikməsinə səbəb olur.

Ekspert əlavə edir ki, offline tranzaksiya modeli müəyyən hallarda saxtakarlıq risklərini də artırır: "Bu modeldə validator kartın balansını bankla anlıq yoxlamadığı üçün, balansı olmayan və ya bloklanmış kartlarla gediş etmək mümkün ola bilər. Bu boşluğu doldurmaq üçün sistem sonradan "qara siyahı" tətbiq edir, lakin məlumatların gecikməsi saxta və ya klonlanmış kartlarla sistemdən müvəqqəti istifadə imkanını artırır".

Bununla belə, ödənişlər zamanı tokenizasiya tətbiq olunur və kart məlumatları şifrələnmiş formada ötürülür.

Mütəxəssislər sərnişinlərə kart balansını mütəmadi yoxlamağı, əməliyyat tarixçəsini izləməyi və şübhəli hallarda bankla əlaqə saxlamağı tövsiyə edir. Daha təhlükəsiz yanaşma kimi nəqliyyat ödənişləri üçün ayrıca kartdan istifadə etmək də məqsədəuyğun hesab olunur. Nəticə olaraq, NFC texnologiyası rahatlıq yaratsa da, mövcud gecikmələr göstərir ki, sistemin texniki dayanıqlığı və istifadəçi ilə kommunikasiya hələ də təkmilləşdirilməlidir.



Elvin Abbasov

DƏRSLƏRİN YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRİLMƏSİ MÜƏLLİMİN PEŞƏKARLIĞINDAN ASILIDIR

# CƏDVƏLDƏ VAR, AMMA DƏRS KEÇİRİLMİR

Məktəblərdə fiziki tərbiyə fənninin tədrisi ilə bağlı problemlər müşahidə edilir. Bəzi hallarda qeyri-peşəkarlıq, bəzi hallarda isə infrastruktur çatışmazlığı mane olur.




TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Fiziki tərbiyə fənni tədris planının vacib bir hissəsidir. Həkimlər hesab edirlər ki, məktəbdə idman və bədən tərbiyəsi sağlamlığı qorumaq, zehni stressi aradan qaldırmaq və uşaqlarda intizamı inkişaf etdirmək üçün çox vacibdir. Amma bizim məktəblərdə bu fənnin tədrisi ilə bağlı problemlər müşahidə edilir. Paytaxtın iki ayrı məktəbində təhsil alan 3-4-cü sinif şagirdləri ilə söhbətimizdə fiziki tərbiyə dərsinin necə keçirilməsi ilə maraqlandıq və aldığımız cavablar problemlərin olduğunu göstərdi: "Dərs cədvəlində fiziki hazırlıq fənni olsa da, indiyə qədər bu dərs bizə keçilməyib. Biz ibtidai sinif şagirdi olduğumuza görə bu dərsi idman zalında deyil, sinifdə keçməliyik. Amma bu dərsin yerinə həmişə başqa fənlərdən test edirik".

Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədovun bu günlərdə məktəblərdə idman dərslərinin düzgün təşkil olunmaması, fiziki tərbiyə müəllimlərinin qeyri-peşəkar yanaşması ilə bağlı fikirləri də bu sahədə çatışmazlıqların olduğunu deməyə əsas verir. Nazirlik rəsmisi qeyd edib ki, vaxtında düzgün planlaşdırılmayan yüklənmələrin, düzgün təşkil edilməmiş məşq prosesinin və peşəkar yanaşmanın olmaması səbəbindən uşaqların sağlamlığına zərər vurulur.

### "MƏKTƏBLƏRDƏ İDMAN DƏRSLƏRİ DEMƏK OLAR Kİ, KEÇİRİLMİR"

Tibb elmləri üzrə fəlsəfə doktoru Şəmsiyyə Namazovanın fikrincə, ibtidai siniflərdən başlayaraq fiziki tərbiyə dərslərinin düzgün təşkili şagirdlərin sağlam inkişafı üçün önəmlidir: "İndi bizim məktəblərdə fiziki tərbiyə dərsləri demək olar ki, keçirilmir. Ancaq uşaqların dərs saatı və yüklənmələri çox olduğu üçün bu dərs önəmlidir. Çünki fiziki tərbiyə beynin aktivliyini, diqqətin cəmlənməsini yüksəldir, yuxu keyfiyyətini yaxşılaşdırmağa kömək edir, eyni zamanda bütün orqanların hərəkətliliyini təmin edir. Müasir dövrün uşaqları adətən artıq çəkidən əziyyət çəkirlər. Çünki qaçmaq, tullanmaq və idmanla məşğul olmaq əvəzinə, internetdə, sosial şəbəkələrdə vaxt keçirmək, kompüter və smartfonlarda oyun oynamaq üçün çox vaxt sərf edirlər. Bu baxımdan, fiziki tərbiyə dərslərini həyati göstəriş hesab edirəm. Şagirdlər heç olmasa, həftədə iki dəfə fiziki tərbiyə dərslərində iştirak etməlidirlər".



Şəmsiyyə Namazova

### "MƏQSƏD SAĞLAM VƏ TƏHLÜKƏSİZ İNKİŞAFI TƏMİN ETMƏK OLMALIDIR"

Fiziki tərbiyə müəllimlərinin də ünvanlarına səslənən fikirlərlə bağlı öz arqumentləri var.

Akademik Zərifə Əliyeva adına liseyin fiziki tərbiyə müəllimi Hüseyn Hüseynovun fikrincə, fiziki tərbiyə dərsinin əsas məqsədi yalnız fiziki hazırlıqlı şagird yetişdirmək deyil, sağlam və təhlükəsiz inkişafı təmin etməkdir: "Məktəblərdə fiziki tərbiyə dərsi şagirdlərin sağlam inkişafı, hərəkət qabiliyyətlərinin formalaşması və sağlam həyat tərzinə yiyələnməsi baxımından mühüm əhəmiyyət daşıyır. Lakin fiziki tərbiyə dərslərində də müəyyən zədələnmə riski mövcuddur. Bu risklərin minimuma endirilməsi isə dərsin düzgün təşkili, müəllimin peşəkar yanaşması və təhlükəsizlik qaydalarına ciddi riayət olunması ilə birbaşa bağlıdır".



Hüseyn Hüseynov

## "Məktəblərin idman infrastrukturu da əhəmiyyət kəsb edir"

Azərbaycan Gənc Fiziki Tərbiyə Müəllimləri Birliyinin sədri, Şirvan şəhər Kimya-Biologiya təmayüllü liseyin fiziki tərbiyə müəllimi Nurəddin Babayevin fikrincə, bu dərslərin yüksək səviyyədə təşkili üçün həm müəllimlərin peşəkar hazırlığı, həm də məktəblərin idman infrastrukturu böyük əhəmiyyət kəsb edir: "Fiziki tərbiyə dərslərinin keyfiyyətinə təsir edən əsas məsələlərdən biri də regionlarda idman infrastrukturunun vəziyyətidir. Bir çox bölgələrdə məktəblərdə idman zalları ya məhdud ölçüdədir, ya da inventar baxımından tam təmin olunmayıb. Bəzi məktəblərdə isə ümumiyyətlə, qapalı idman zalı olmadığı üçün dərslər açıq havada keçirilir ki, bu da xüsusilə qış aylarında müəyyən çətinliklər yaradır. Gələcəkdə fiziki tərbiyə sahəsində müasir metodların tətbiqi, müəllimlərin davamlı təlimlərə cəlb olunması və regionlarda idman infrastrukturunun gücləndirilməsi bu sahədə mövcud problemlərin aradan qaldırılmasına mühüm töhfə verə bilər".



Nurəddin Babayev

## "Bu problemlər daha çox kənd məktəblərində müşahidə olunur"

Lənkəran şəhəri Vaqif Əliyev adına 4 nömrəli məktəb-liseyin fiziki tərbiyə müəllimi Asəf Ağaquliyevin fikrincə, məktəblərdə fiziki tərbiyə dərslərinin yüksək səviyyədə keçirilməsi bilavasitə müəllimin peşəkar olmasından asılıdır: "Bir çox hallarda müəllim şagirdlərə futbol və yaxud voleybol topu verib nəzarət etmədən və oyun qaydalarını başa salmadan "gedin, oynayın" deyir. Yaxud şagirdləri motivasiya etmədən, müxtəlif qızışma hərəkətləri olmadan dərslərə başlayır ki, bu da uşaqların inkişafı üçün yetərli olmur".

A.Ağaquliyev deyir ki, fiziki tərbiyə dərslərinin yüksək səviyyədə keçirmək üçün idman zalının və avadanlıqların olması da vacibdir: "Çalışdığım məktəbdə 1800 nəfərdən çox şagird var. Bəzən eyni vaxtda 2-3, bəzən də 4 sinif idman zalına gəlir. Bu da ən azı 80-100 şagird deməkdir. Bu zaman çətinliklər yaranır. Çox təəssüf ki, hər məktəbdə bu dərsin keçilməsi üçün şərait yoxdur. Ya idman zalı var, ləvazimatlar yoxdur, ya da avadanlıq var, sadəcə şagirdləri yüksək səviyyədə hazırlamaq üçün müəllimin peşəkarlığı çatışmır". Müəllim bildirir ki, bir çox hallarda valideynlər övladlarını fiziki tərbiyə dərslərindən uzaq tutur, onlara idman forması geyindirmirlər: "Bu problemlər daha çox kənd məktəblərində müşahidə olunur. Ucqar kənd məktəblərində qızlar demək olar ki, fiziki tərbiyə dərslərinə girmirlər".



Asəf Ağaquliyev

# GÖLLƏR YAŞAYIŞ SAHƏSİNƏ NECƏ ÇEVRİLİR?

SEVİNC ABBASOVA

Son illər Bakının müxtəlif ərazilərində təbii su hövzələrinin doldurulması və həmin sahələrin tikinti məqsədilə satılması faktları tez-tez gündəmə gəlir. Bu proses təkcə ekoloji mühit üçün deyil, həm də gələcəkdə həmin ərazilərdə yaşayan insanlar üçün ciddi risklər yaradır. Sabunçu rayonunun Maştağa qəsəbəsində baş verən son hadisə bu problemin nə qədər aktual və təhlükəli olduğunu bir daha göstərir. Məlumata görə, Maştağa qəsəbəsinin “Sovxoz Ramana” adlanan ərazisində yerləşən su hövzəsinin bir hissəsinin qanunsuz şəkildə doldurulması faktı aşkar edilib. Araşdırmalar zamanı müəyyən olunub ki, əsasən gecə saatlarında daşınan bərk və qarışıq süxur tullantıları vasitəsilə su hövzəsinin 0,34 hektarlıq hissəsi doldurulub və bununla da akvatoriya süni şəkildə kiçildilib. Məsələ ilə bağlı araşdırma aparılıb və fakt hüquqi qiymət verilməsi üçün aidiyyəti qurumlara təqdim olunub. Lakin məsələ təkcə bir gölün doldurulması ilə məhdudlaşmır. Şəhərin müxtəlif yerlərində analoji halların baş verdiyi barədə məlumatlar var. Bir sıra ərazilərdə göllərin və bataqlıqların doldurulması nəticəsində torpaq sahələri formalaşdırılır və sonradan həmin sahələr fərdi yaşayış evlərinin tikintisi üçün satılır. Qısa müddətdə əldə edilən bu qazanc uzunmüddətli ekoloji və sosial problemlərin yaranmasına səbəb olur.

### EYNİ ƏRAZİDƏ İKİ İCRAEDİCİ QURUM PROBLEMİ

Daşınmaz əmlak bazarı üzrə ekspert Elnur Azadov bildirir ki, ölkədə su hövzələri ilə bağlı torpaq istifadəsi məsələlərində ciddi problemlər mövcuddur. Onun sözlərinə görə, bəzi ərazilər təbii xüsusiyyətlərinə görə qorunma zonasına daxildir və bu yerlərdə torpaqdan istifadə xüsusi qaydalarla tənzimlənməlidir. Lakin praktiki vəziyyət göstərir ki, müəyyən ərazilərdə vaxtaşırı qrunt sularının toplanması nəticəsində kiçik bataqlıqlar formalaşır, sonradan isə həmin sahələr qurudularaq torpaq kimi satışa çıxarılır.

Ekspert qeyd edir ki, bu cür hallara xüsusilə bələdiyyə torpaqlarında tez-tez rast gəlinir. Bununla belə, məsuliyyətin konkret olaraq hansı qurumun üzərinə düşməsi məsələsi çox zaman açıq qalır. Ekspertin fikrincə, torpaq sahəsinin ilkin satışını həyata keçirən qurum bu prosesdə əsas məsuliyyət daşımalıdır: “Azərbaycan Respublikasının hüquqi-normativ sənədlərində qərarların yerli icra hakimiyyəti orqanları tərəfindən verilməsi nəzərdə tutulur. Lakin reallıqda ərazilərdə iki icraedici struktur – həm icra hakimiyyətləri, həm də bələdiyyələr fəaliyyət göstərir.


Elnur Azadov

Formal olaraq əsas icraedici qurum kimi yerli icra hakimiyyətləri qəbul edilir. Cəmiyyət isə bələdiyyələri əsasən torpaq satan qurum kimi tanıyır”.

E.Azadovun fikrincə, mövcud problemlərin əsas səbəblərindən biri eyni ərazidə iki icraedici strukturun fəaliyyət göstərməsidir. Bu, səlahiyyətlərin bölüşdürülməsində qeyri-müəyyənlik yaradır.

Bir sıra ərazilərdə göllərin və bataqlıqların doldurulması nəticəsində torpaq sahələri formalaşdırılır və sonradan həmin sahələr fərdi yaşayış evlərinin tikintisi üçün satılır. Qısa müddətdə əldə edilən bu qazanc uzunmüddətli ekoloji və sosial problemlərin yaranmasına səbəb olur.



### Bələdiyyə sərhədlərinin müəyyənləşdirilməsi gecikir

Ekspert xatırladır ki, hələ 2020-ci ildə bələdiyyələrin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı tapşırıq verilib. Lakin aradan 5-6 il keçməsinə baxmayaraq, bu istiqamətdə işlərin cəmi 30–40 faizi tamamlanıb və proses hələ 50 faiz həddinə belə çatmayıb. Müsahibimizin fikrincə, sərhədlər tam müəyyən edildikdən sonra həmin torpaqlara rəsmi çıxarış verilməli, onların satışı və icarəsi ilə bağlı aydın və şəffaf strategiyalar hazırlanmalıdır. Əks halda, qanunvericilikdəki boşluqlar və səlahiyyət bölgüsündəki qeyri-müəyyənliklər torpaq idarəçiliyində problemlərin davam etməsinə səbəb olacaq.

### DÖVLƏT QEYDİYYATI OLMAYAN ƏMLAK SATILA BİLMƏZ

Məsələnin hüquqi tərəfini şərh edən hüquqşünas Ruslan Vəliyev deyir ki, bu kimi hallar hüquqi baxımdan dələduzluq kimi qiymətləndirilir.


Ruslan Vəliyev

Qanunvericiliyə əsasən, belə əmlakların satışı mümkün deyil. Çünki hər hansı daşınmaz əmlakın alqı-satqısı üçün həmin əmlakın əvvəlcə dövlət qeydiyyatına alınması və rəsmi çıxarışının olması tələb olunur.

Hüquqşünas izah edir ki, əgər torpaq sahəsi su mühafizə zonasına düşürsə və ya tikinti üçün yararlı hesab edilmirsə, həmin ərazi üzrə dövlət qeydiyyatından imtina edilir. Bu halda torpaq sahəsi yaşayış və ya tikinti məqsədilə satıla bilməz.

Hüquqşünas həmçinin bildirir ki, gölləri və ya su hövzələrini dolduraraq torpaq kimi satan şəxslər qanun qarşısında məsuliyyət daşıyırlar. Hər hansı su hövzəsini torpaqla doldurmaq həmin ərazi üzərində mülkiyyət hüququ yaratmır.

## Vizual qərarlar çökmə riskini artırır

Memar Cahid Həsənov isə hesab edir ki, göllərin və bataqlıq ərazilərin doldurularaq istifadə edilməsi məsələsinə birtərəfli yanaşmaq düzgün deyil. Onun sözlərinə görə, dünya təcrübəsində uzun illər mövcud olmuş gölməçələrin və su hövzələrinin qurudulması, həmin ərazilərdə torpaqlaşma və möhkəmləndirmə işlərinin aparılması müasir texnologiyalar vasitəsilə mümkündür.

Mütəxəssis qeyd edir ki, bu gün dünyada dənizin ortasında belə iri tikililərin inşa olunduğu layihələr mövcuddur. Lakin əsas məsələ həmin ərazinin texniki və geoloji baxımdan düzgün qiymətləndirilməsidir.

Hər hansı su hövzəsinin doldurulmasından sonra həmin əraziyə yenidən suyun dolub-dolmaması, yeraltı suların vəziyyəti, torpağın dayanıqlığı və digər geoloji xüsusiyyətlər xüsusi analizlər və laboratoriya tədqiqatları əsasında araşdırılmalıdır.

C.Həsənov vurğulayır ki, əgər bu proseslər yalnız vizual müşahidələrə əsaslanaraq həyata keçirilirsə, həmin ərazilərdə keyfiyyətli və təhlükəsiz tikintidən danışmaq mümkün deyil. Belə hallarda iqlim şəraiti, yeraltı suların hərəkəti və torpaq qatlarının xüsusiyyətləri nəzərə alınmadıqda, müəyyən müddətdən sonra ərazidə çökmə riski yaranır. Bu isə təkcə tikinti aparılan binalar üçün deyil, ümumilikdə həmin sahənin dayanıqlığı üçün ciddi təhlükə yarada bilər.


Cahid Həsənov

YAXIN QOHUMLARIN EVLƏNMƏSİ PLANLAŞDIRILIRSA, İNZİBATİ MÜDAXİLƏ ZƏRURİDİR

# QANUN VAR, AMMA STEREOTİPLƏR DƏ QALIR

Qohum evliliklərinə qoyulan hüquqi qadağa bu sahədə müəyyən dəyişikliklər yaratsa da, mövzu hələ də cəmiyyətdə müzakirə olunur. Mütəxəssislər qeyd edirlər ki, qanun nikahın rəsmi qeydiyyatını məhdudlaşdırsa da, bəzi ailələrdə ənənəvi yanaşmalar qalmaqdadır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycanda qohum evliliklərinə qoyulan qadağaya baxmayaraq, Ağcabədi rayonunun Avşar kəndində iki bacının övladlarının – xalaoğlu və xalaqızının evlənməsi barədə məlumat yayılıb. Bildirilir ki, toy mərasimi martın 27-də keçirilib. Qeyd edək ki, Azərbaycanda yaxın qohumlar arasında nikah qanunla qadağan olunub. Bəs bu qadağaya nə dərəcədə əməl edilir və belə halların qarşısını almaq üçün hansı tədbirlər görülür?

### "RƏSMİ MÜRACİƏTLƏR QƏBUL OLUNMUR"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin müdir müavini Kamilə Əliyevanın sözlərinə görə, 2024-cü ildə Ailə Məcəlləsində qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları, eləcə də bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahların bağlanmasına qadağa qoyulmasına dair dəyişiklər edilib. Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minib: "Qanunun qüvvəyə mindiyi müddətdən yuxarıda qeyd olunan qohumlar arasında nikahın bağlanması ilə bağlı qeydiyyat şöbələri tərəfindən rəsmi müraciət qəbul olunmur".

### İCTİMAİ FƏAL İNSANLARIN KÖMƏYİNƏ EHTİYAC VAR

K.Əliyevanın fikrincə, belə halların qarşısının alınması ilə bağlı maarifləndirmə qaydası təsdiq edilib. Sənədin icrası 14 dövlət qurumuna və bütün yerli icra hakimiyyəti orqanlarına tapşırılıb: "Qaydanın icrası istiqamətində aidiyyəti qurumlar, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dövlət Komitəsinin tabeliyində olan Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən mütəmadi olaraq yeniyetmə və gənclərin, valideynlərin erkən evlilik və qohum evliliyin mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran görüşlər keçirilir, maarifləndirici vəsaitlər dərc edilir və yayımlanır, araşdırmalar aparılır". Amma buna baxmayaraq bəzi ailələrdə müşahidə olunan ənənəvi stereotiplər, qohumların evlənməsinə müsbət yanaşılması kimi patriarxal düşüncələr belə nikah hallarının baş verməsinə səbəb olur: "İctimai fəal insanların, ümumilikdə bütün cəmiyyət üzvlərinin də belə halların qarşısının alınmasında yaxından iştirak etməsi qohum nikahlarla bağlı düzgün münasibətin formalaşmasında öz töhfəsini verəcək".



Kamilə Əliyeva

Maraqlıdır ki, Ədliyyə Nazirliyi qadağaların qüvvəyə mindiyi tarixdən etibarən evlilik üçün müraciət edən qohumlarla bağlı statistika aparmır. Bu barədə nazirlikdən sorğumuza cavab olaraq bildirildi.




## "Məsuliyyət nəzərdə tutulur"

"Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova düşünür ki, bu mövzu gündəmdə olan məsələlərdən biridir: "Qanuna zidd hərəkətlər baş verərsə, kimliyindən asılı olmayaraq məsuliyyət nəzərdə tutulur. Hər bir Azərbaycan vətəndaşı dövlət tərəfindən qəbul edilən qərarlara hörmət və məsuliyyətlə yanaşmalıdır. Əgər vəzifədə olan bir şəxs belə halların baş verməsindən xəbərdar olub və bunun qarşısını almaq üçün heç bir addım atmayıbsa, bu, daha ciddi məsələdir. Belə vəziyyətlərdə ən azı müvafiq dövlət qurumlarının müdaxiləsi ilə həmin şəxslərlə söhbətlər aparılmalı və evliliyin baş tutmaması üçün tədbirlər görülməli idi. Əgər bu edilməyibsə, belə hallara görə məsuliyyətin daha ciddi olması vacibdir". N.İsmayılovanın sözlərinə görə, ortada fakt varsa və həqiqətən də yaxın qohumların evlənməsi planlaşdırılırsa, dövlət qurumlarının müdaxiləsi zəruridir: "Qanunla qoyulan qadağanın cəmiyyətdə müəyyən təsiri hiss olunur. Bununla belə, insanların bu qadağanı nə dərəcədə qəbul etməsi artıq müəyyən mənada cəmiyyətin öz məsuliyyəti ilə bağlıdır. Burada məsuliyyət yalnız cütlüklərin üzərinə düşmür. Valideynlər, qohumlar, hətta qonşular öz mövqelərini bildirməlidirlər. Çünki belə qərarların icrası bütövlükdə cəmiyyətin iştirakı ilə mümkündür. Bəzi bölgələrdə qohum evliliklərinin davam etməsi isə ilk növbədə cütlüklərin özlərinə zərər verir. Bu, həm sağlamlıq riskləri, həm də gələcəkdə sosial baxımdan müəyyən problemlərlə üzləşmək ehtimalı yaradır. Ona görə də cəmiyyət olaraq bu məsuliyyəti hamımız bölüşməliyik".



Nailə İsmayılova

## "Cəmiyyət də aktiv iştirak etməlidir"

QHT sədrinin fikrincə, bu məsələdə yerli özünüidarəetmə orqanları, xüsusilə bələdiyyələr mühüm rol oynayır. Bələdiyyələrdə gender komissiyaları fəaliyyət göstərir və onlar ailə münasibətləri ilə bağlı məsələlərdə qanunların düzgün icrasına töhfə verməlidirlər: "Onların vəzifəsi belə hallarda prosesin iştirakçısına çevrilmək deyil, qanunun düzgün icrasını təmin etməkdir".

Qeyd edək ki, Azərbaycanda qohum evliliyinə görə ayrıca cəza maddəsi yoxdur. Əsas məhdudiyyət nikahın qeydiyyata alınmamasıdır.

# KOLUMBUN MÜBAHİSƏLƏRƏ SƏBƏB OLAN EVİ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Genuyanın dəmir yolu vağzalından çıxan hər kəsi Xristofor Kolumbun ağ mərmər abidəsi qarşılayır. Şəhərin adını dünyaya tanıdan məşhur dəniz səyyahının ev-muzeyinin yolunu isə böyükdən-kiçiyə hamı tanıyır.**

Genuya İtaliyanın şimal-qərbindəki böyük liman şəhəri və Liquriya bölgəsinin paytaxtıdır. Şəhər çoxsaylı tarixi abidələrə və memarlıq incilərinə malikdir və onların çoxu UNESCO-nun Dünya İrsi Siyahısına daxildir. Vaxtilə İtaliyanın qüdrətli dəniz paytaxtı kimi tanınıb. Amma şəhəri daha çox tanıdan məşhur dəniz səyyahı Xristofor Kolumbun və bəstəkar Nikkolo Paqaninin vətəni olmasıdır.

Şəhərin dəmir yolu vağzalından çıxan hər kəsi Kolumbun möhtəşəm ağ mərmər abidəsi qarşılayır. Şəhərin adını dünyaya tanıdan dəniz səyyahının ev-muzeyinin yolunu isə böyükdən-kiçiyə hamı tanıyır. Yerli əhalinin Kolumbun evinə xüsusi bir münasibəti var. Onu da qeyd edək ki, İtaliya və İspaniyada altı şəhər Kolumbun doğulduğu yer olmaq şərəfi uğrunda yarışır.

### KEÇMİŞƏ QAYITMAQ ÜÇÜN NADİR ŞANS

Genuyadakı "Xristofor Kolumbun Evi" (Casa Columbus) şəhərin ən vacib tarixi yerlərindən biridir. Dünyaca məşhur səyyahın uşaqlıq və yeniyetməlik dövründə - 1455-ci ildən 1470-ci ilə qədər bu evdə yaşadığı iddia edilir. Bəzi tarixçilərin fikrincə, Kolumb ilk müəllimləri və səyahət yoldaşları ilə məhz bu tarixi mərkəzin dar küçələrində tanış olub.

Muzeyə baş çəkmək ziyarətçilərə Xristofor Kolumbun kəşfləri haqqında daha çox məlumat əldə etməyə, intibah dövrünün ən əhəmiyyətli şəxsiyyətlərindən birinin həyat və fəaliyyəti ilə yaxından tanış olmağa imkan verir. Kolumbun dənizə və kəşfiyyat ideyasına olan marağı ilk dəfə bu evin divarları içərisində inkişaf edib. Bu gün bu ev Kolumbun həyatı və nailiyyətləri üçün kiçik bir abidə rolunu oynayır. İçəridə nümayiş panelləri və sərgilər yalnız səyyahın karyerasının fövqəladə gedişatını deyil, həm də ailəsinin gündəlik həyatını əks etdirir. Bu evi ziyarət etmək gənc səyyahın 22 yaşında naməlum dünyaya səyahətə çıxmazdan əvvəlki dünyasına nəzər salmaq və keçmişə qayıtmaq üçün nadir bir şansdır.

















## Böyük malikanə deyil, amma tarixlə zəngindir

Kolumbun Evi Genuyadakı mərkəzi Ferrari meydanından bir neçə dəqiqəlik piyada məsafədəki Dante meydanında yerləşir. Əlbəttə, bu, böyük bir malikanə deyil, amma tarixlə zəngindir: Kolumbun ailəsinin gündəlik həyat hekayəsini təsəvvürə gətirmək üçün evin bir neçə otağına baş çəkmək kifayətdir.

Bəzi tədqiqatçılar bildirirlər ki, Kolumbun Genuyadakı evinin əsl tarixi olduqca qarışıqdır. Belə ki, səyyahın orijinal evi artıq mövcud deyil. Dante meydanında yerləşən bina isə köhnə şəhər xəritəsinə əsasən 1913-cü ildə yenidən qurulub. Evin 1684-cü ildə fransız donanması tərəfindən Genuya bombardmanı zamanı dağıdıldığı güman edilir.

### ƏŞYALAR VƏ SƏNƏDLƏR KOLLEKSİYASINI ÖZÜNDƏ BİRLƏŞDİRİR

Genuya tarixçisi Marçello Staqlienoya görə, bina Kolumbun dövründə iki və ya üç mərtəbəli olub və əvvəlki tikilinin xarabalıqları üzərində yenidən tikilib. Binanın birinci mərtəbəsində mağaza yerləşirdi; giriş qapısı fasadın sol tərəfində idi. Taxta tavan birinci mərtəbəni ikinci mərtəbədən ayırır və ehtimal ki, binanın orijinal planını əks etdirir.

Muzeyin əməkdaşı məlumat verir: "1892-ci ildə Genuya bələdiyyəsi Xristofor Kolumbun doğulduğu yer hesab edilən binanı əldə edib, lakin sonradan bunun orijinal ev olmadığı deyilib. Bir neçə il davam edən mübahisələrdən sonra, 1898-ci ildə bələdiyyə Genuyanın tarixi mərkəzində Sant Andrea kilsəsini və Xristofor Kolumbun doğulduğu yer kimi müəyyən edilmiş bu binanı əhatə edən torpaq sahəsini əldə edib". Bələdçi deyir ki, həmin ev bərpa edilib və Xristofor Kolumbun həyatı və tədqiqatları haqqında əşyalar və sənədlər kolleksiyasını özündə birləşdirən muzeyə çevrilib.

Qırmızı kərpicli ev Genuya bələdiyyəsi tərəfindən Kolumbun italyan mənşəyinin sübutu olaraq təmir edilib. Bina daha sonra şəhər darvazası olan Porta-Soprana bərpa proqramına daxil edilib və bu sənəd 19-cu əsrin sonları və 1930-cu illər arasında şəhər mərkəzinin yenidən qurulması zamanı onu sökülmək-dən xilas edib.






## Ocaq ailənin sadə və qənaətcil həyat tərzini əks etdirir

"Kolumbun Evi iki mərtəbəlidir: birinci mərtəbədə yun parça toxuyan və satan atası Domeniko Kolumbun mağazası yerləşirdi. Ailə isə ikinci mərtəbədə yaşayırdı", - deyə muzeyin əməkdaşı məlumat verir.

İkinci mərtəbədə yemək və yatmaq üçün istifadə edilən iki kiçikölçülü otaq var. Arxadakı ən sol küncdə, ehtimal ki, gündəlik yemək bişirmək üçün istifadə edilən ocağın yerini kobud yonulmuş daş əvəzləyib. "Bu ocaq, ailənin sadə və qənaətcil həyat tərzini əks etdirir. Çox güman ki, burada yemək hazırlanırdı, yeməklər isə yuxarıdakı daha böyük otaqlarda yeyilirdi. Orada iki sadə otaq, ehtimal ki, yemək və yataq yeri kimi xidmət edirdi" - deyə muzeyin əməkdaşı bildirir.

### GENUYA KOLUMBLA ƏLAQƏLİ ƏFSANƏLƏRLƏ ZƏNGİNDİR

Kolumbun görünüşü onun ölümündən sonra çəkilmiş portretlərindən məlumdur. 1493-cü ildə Kolumbu görən Bartolome de las Casas onu belə təsvir edib: o, hündürboylu idi, uzun və təsirli üzü, qartal burnu, mavi-boz gözləri, qırmızımtıl çalarlı ağ dərisi vardı. Saqqalı və bığı gəncliyində qırmızımtıl olmuş, sonradan boz rəngə çevrilmişdi.

Tarixçilərin sözlərinə görə, kasıb ailədə Xristofordan başqa digər uşaqlar da olub: Giovanni, Bartolomeo, Giacomo və Bianchella.

Kolumbun evinin əsas fasadındakı xatirə lövhəsində yazılıb: "Xristofor Kolumbun uşaqlığını və gəncliyini keçirdiyi bu evdən daha çox diqqətə layiq başqa bir ev yoxdur".

Muzeyin yanında Sant-Andrea monastırı yerləşir. Bu, 1100-cü illərdə tikilmiş və Kolumb ailəsinin kilsəsi kimi istifadə edilən kiçik bir kilsənin yenidən bərpa olunmuş qalıqlarıdır. Muzeyə giriş üçün alınan biletə monastırı ziyarət də daxildir.

Genuya Kolumbla əlaqəli əfsanələrlə zəngindir. Dənizçi səyyah haqqında bu hekayələr tarixi faktlarla qarışaraq atmosferə müəyyən bir cazibədarlıq qatır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
11 APREL ŞƏNBƏ 2026
www.kaspi.az

“Neftçi”nin qarşısında minimal hədəf kimi 4-cü pillə dayanır. Komandanın hazırkı forması və dinamikanı nəzərə alsaq, bu, artıq real görünür. Çempionatın ortasında verilən Yuri Vernidubun baş məşqçi postuna gətirilməsi qərarı ilə klub mövsümü xilas etməyə yaxındır.

# YENİDƏN DİRÇƏLƏN “NEFTÇİ”

Futbol üzrə Azərbaycan Premyer Liqası finişə yaxınlaşır. Yarışın 26 turundan sonra “Qarabağ”la “Sabah” ikincinin daha üstün olduğu çempionluq mübarizəsindədirlər. Son yeddi turda ehtiyatında bir oyunu da olan “atlılar” 10 xallıq fərqi aradan qaldırmağa çalışacaqlar. Avrokubok mübarizəsi də qətiyyən çempionluq savaşından geri qalmır. Burada “Turan Tovuz”, “Zirə” və “Araz Naxçıvan”a yeni fiqur qoşulub. Son zamanlar yaxşı performans sərgiləyən “Neftçi” Konfrans Liqası iddiasını ciddi şəkildə ortaya qoyub.



### VERNİDUBLA DƏYİŞƏN GEDİŞAT

Mövsümə zəif başlayan “Neftçi” Samir Abasovun rəhbərliyi altında nə tələb olunan oyunu göstərə bilir, nə də lazımi nəticələri əldə etməyi bacarırdı. 12-ci turda evdə yarışın yeni sakinlərindən “İmişli”yə 2:3 hesablı məğlubiyyət mütəxəssis üçün “ağ-qara” “sükançı”sı kimi sonuncu qarşılaşma oldu. Dekabrın 9-da ukraynalı Yuri Vernidub uzun danışıqlardan sonra paytaxt təmsilçisinə baş məşqçi təyin olundu. Daha əvvəl Moldova “Şerif”indəki uğurlu fəaliyyəti ilə yadda qalan 60 yaşlı çalışdırıcının tapşırığı mövsümün geri qazanılması idi. Bu heç də asan missiya kimi görünmürdü.

Vernidub komandaya qoşularkən “Neftçi” 14 oyundan cəmi 16 xal toplamış və turnir cədvəlinin 8-ci pilləsində qərarlaşmışdı. “Ağ-qaralar”ı həm sonuncu pillədən, həm də avrokuboklar zonası sayılan dördüncü yerdən 11 xal ayırırdı. Komanda həmin mərhələyədək cəmi 16 qol vurmuş, 14 top buraxmışdı. Sərgilənən oyun da gələcəyə dair ciddi ümid vəd etmirdi. Bununla belə, həm azarkeşlər, həm də mütəxəssislər razılaşırdı ki, “Neftçi” keyfiyyətli oyunçu arsenalına malikdir və düzgün məşqçi seçimi ilə vəziyyəti dəyişmək mümkündür. Bu dönüş nöqtəsi Vernidubun gəlişi ilə başladı. Ukraynalı mütəxəssisin rəhbərliyi altında Bakı klubu 11 oyun keçirib və yalnız birində məğlub olub. Bu müddətdə 7 qələbə qazanan komanda 3 qarşılaşmadan heç-heçə ilə ayrılıb. Bu uğurlu seriya “Neftçi”ni turnir cədvəlində 8-ci pillədən 5-ci yerə qədər yüksəldib. Hazırda 40 xalı olan “ağ-qaralar” “Zirə”dən cəmi 3 xal geri qalır. Üstəlik, komandanın ehtiyatda oyunu da var ki, bu amili nəzərə aldıqda “flaqman”ın rəqibi ilə eyni mövqedə qərarlaşmaq potensialı kifayət qədər real görünür. Digər tərəfdən, 3-cü pillədə qərarlaşan “Turan Tovuz”un 49 xalı var və mövcud dinamika fonunda bu məsafə də artıq əlçatmaz sayılmır.

Mövsümün sonuna yaxınlaşdıqca “Neftçi”nin yüksəlişi turnir cədvəlində intriqanı daha da artırır.



Yuri Vernidub

## Həm oyun düzəlib, həm də nəticələr

“Neftçi” azarkeşləri komandadan hər zaman baxımlı və hücumameyilli futbol tələb edib. Samir Abasov dönəmində “neftçilər” daha çox praqmatik, nəticəyə hesablanmış oyun üslubuna görə tənqid olunurdu. Üstəlik, nəticələr də gözləntiləri doğrultmadıqca narazılıq daha da artırdı. Vernidubun gəlişindən sonra isə nəzərəçarpacaq dərəcədə dəyişib. Artıq komandanın avrokubok zonasında qərarlaşması bu irəliləyişin ən konkret göstəricisidir. Oyun üslubu da tədricən azarkeşlərin gözləntilərinə uyğunlaşır. Maraqlıdır ki, Vernidub heyətdə köklü dəyişikliklərə getmədi. Hətta qış transfer pəncərəsində də üstünlük mövcud resurslara verildi və yalnız minimal əlavələrlə kifayətlənildi. Əsas diqqət futbolçuların fərdi potensialının üzə çıxarılmasına yönəldi. İlk növbədə komandada nizam-intizam gücləndirildi, fiziki hazırlıq səviyyəsi yüksəldildi. Uğurlu nəticələr komanda daxilindəki psixoloji mühiti də müsbət yöndə dəyişdi. Artan inam və motivasiya oyun keyfiyyətinə birbaşa təsir göstərdi. Bu gün “Neftçi” meydanda daha dominant çıxış edən tərəf kimi görünür. Statistik göstəricilər də bu transformasiyanı aydın şəkildə təsdiqləyir. İlk 14 turda cəmi 16 qol vuran “ağ-qaralar” sonrakı 11 oyunda rəqib qapılarına 26 dəfə yol tapıblar. Ümumilikdə isə “Neftçi” hazırda “Sabah” və “Qarabağ”dan sonra çempionatda ən çox qol vuran komandalardan biridir.

## Ən vacib oyunlar bu ay olacaq

Qarşıdakı mərhələ “Neftçi” üçün həlledici olacaq. “Ağ-qaralar” avrokuboklara vəsiqə qazanmaq istəyirsə, ilk növbədə “Zirə”ni geridə qoymalıdır. Düzdür, mövsümün sonunda 4-cü pillə belə kifayət etməyə bilər. Bununla belə, “Neftçi” hər şeydən əvvəl öz üzərinə düşəni maksimum səviyyədə yerinə yetirməlidir. Komandanı son dərəcə ağır və gərgin təqvim gözləyir. Birbaşa rəqiblər olan “Araz-Naxçıvan” və “Zirə” ilə oyunlar, “Qarabağ”a qarşı həm təxirə salınmış, həm də təqvim üzrə görüş, eləcə də “Sabah”la çətin qarşılaşma “ağ-qaralar”ın qarşısında duran əsas sınaqlardır. “Kəpəz”, “Şamaxı” və “Karvan-Yevlax”la matçlar kağız üzərində daha rahat görünsə də, Azərbaycan Premyer Liqasında belə oyunların “asan” keçməsi nadir hallarda baş verir. Digər tərəfdən, “Turan Tovuz” və “Zirə”ni də eyni dərəcədə çətin oyunlar gözləyir. Bu isə o deməkdir ki, son turlarda xal itkiləri yalnız “Neftçi” üçün deyil, bütün rəqiblər üçün real görünür.

Beləliklə, “Neftçi”nin qarşısında minimal hədəf kimi 4-cü pillə dayanır. Komandanın hazırkı forması və dinamikanı nəzərə alsaq, bu, artıq real görünür. Klub mövsümü xilas etməyə çox yaxındır.